# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dövlət Statistika Komitəsində 2024-cü ilin yekunlarına və 2025-ci ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib



4

SƏS

№ 028 (7196)

15 fevral 2025-ci il.
Qiyməti 60 qəpik

## "Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin iqtisadi potensialına mühüm töhfələr verəcək"



2

*Bu fikirlər Prezident İlham Əliyevin "Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına müraciətində yer alıb*

# Avropanın təhlükəsizlik problemi



14

## Qrip peyvəndinin hansı təsirləri var?



6

## Milli Məclis 15 məsələ müzakirə edib, vacib qanunlar qəbul olunub



3

## Hər il 300 min uşaq onun qurbanı olur



12

## Milli Şura və AXCP USAİD-in əlində alət olub



11

## Vitrinlərdə başqa qiymət, kassada isə başqa qiymət - NƏ ETMƏLİ?



16

# “Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin iqtisadi potensialına mühüm töhfələr verəcək”

***“Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq.***

İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir.”

Bu fikirlər Prezident İlham Əliyevin “Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya” mövzusunda keçirilən Forumun iştirakçılarına müraciətində yer alıb. Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu olduğu vurğulanan müraciətdə, həmçinin qeyd edilir: “İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır”.

Dövlətimizin başçısı öz məktubunda diqqətə çatdırıb ki, Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır.



*Bu fikirlər Prezident İlham Əliyevin “Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya” mövzusunda keçirilən Forumun iştirakçılarına müraciətində yer alıb*

Müraciətdə, həmçinin deyilir: “Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və “yaşıl artım” ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir”.

# Mərmərə Qrupunun rəhbəri: “COP29-un uğurlu təşkili Azərbaycanın beynəlxalq aləmdəki rolunun göstəricisi oldu”



Azərbaycan bu gün müasir dövlət olaraq Qafqazın sabitliyi və təhlükəsizliyinin təminatçısıdır. Son illər Azərbaycanın ev sahibliyi ilə keçirilən saysız-hesabsız mühüm beynəlxalq tədbirlər, eləcə də xarici platformalarda uğurlu təmsilçilik və beynəlxalq aləmdə söz sahibinə çevrilməsi ölkənin bugünkü rolunu və mövqeyini açıq şəkildə göstərir. Təkcə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi, 80-dən çox ölkədən dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən COP29 bunun ən bariz nümunəsidir. Xüsusilə də COP29-un iştirakçı ölkələrin böyük rəğbətini qazanması, tədbir çərçivəsində aparılan iqlim müzakirələrində əldə olunan həmrəylik və hədəflər Azərbaycanın beynəlxalq aləmdə söz sahibi ölkəyə çevrilməsinin göstəricisidir. Ölkənin beynəlxalq arenadakı uğurlarından danışarkən əlbəttə ki, Qarabağ probleminin beynəlxalq hüququn prinsipləri və normalarına, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll edilməsi, bununla da bölgədə sülhün təmin olunması Azərbaycanın beynəlxalq aləmdə böyük uğuru kimi tarixə düşüb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver ifadə edib.

Professor deyib ki, Prezident İlham Əliyevin düzgün siyasəti nəticəsində bu gün Azərbaycan təkcə Qafqazda deyil, qlobal arenada da sülh, sabitlik və inkişaf nümunəsi, təhlükəsiz ölkə kimi tanınır. “Bu gün münaqişələrin və qarşıdurmaların yaşandığı coğrafiyamızda Rusiya, Çin, Avropa İttifaqı və ABŞ ilə münasibətləri düzgün xətt üzrə davam etdirmək böyük diplomatik uğurdur. Bu, yalnız doğru idarəçilik sayəsində mümkün ola bilər. Altmış il əvvəl Paris “İşıqlar şəhəri” adlandırılırdı, bu gün isə Bakı onu geridə qoyacaq miqyas və diplomatik əhatə dairəsinin genişliyi baxımından həqiqi işıqlar şəhərinə çevrilib. Bakı ilə yanaşı, viran qalmış vəziyyətdə işğaldan azad edilən Şuşa, Ağdam, Füzuli və Xankəndi kimi tarixi Azərbaycan torpaqları da çox qısa zamanda sivilizasiya mərkəzinə çevrilib, bu inkişaf hələ də davam edir. Bütün bunlar ölkənin təkcə xarici deyil, eyni zamanda, düzgün daxili siyasətinin də bariz göstəriciləridir. Bunları nə üçün deyirəm? Çünki Azərbaycan dünya dövləti olaraq bu gün təkcə siyasəti və ya iqtisadi uğurları ilə deyil, həm də tarixi, mədəni, bəşəri, yəni, insanı insan edən bütün dəyərlərə göstərdiyi böyük hörməti ilə də seçilir. Bu, Azərbaycan şəhərlərinin estetik görünüşündə də özünü göstərir”, - deyə o vurğulayıb.

Akkan Suver deyib ki, beynəlxalq aləmdə saysız-hesabsız tərəfdaşlıqlara imza atan Azərbaycan təkcə Türk dünyasının birliyinin formalaşmasına deyil, həm də İpək yolu təşəbbüsü çərçivəsində Çin ilə birgə yol xəritəsinin hazırlanmasına, Avropa İttifaqına üzv on ölkə ilə strateji tərəfdaşlığa, bunun kimi regional, qlobal sülh və inkişafa xidmət edən bir çox təşəbbüsə dəstək verib.

“Təbii ki, dünya ölkələri ilə münasibətlərdən bəhs edərkən Türkiyə ilə Azərbaycan arasındakı dostluğu və qardaşlığı vurğulamalıyıq. Ölkələrimiz arasında “Bir millət, iki dövlət” prinsipinə əsaslanan münasibətlər hər platformada qarşılıqlı dəstəyin və həmrəyliyin əsası olmaqla yanaşı, həm də bu gün dünyanın yüksələn ulduzu olan Türk birliyinin təminatçısıdır”, - deyə professor vurğulayıb.

# Milli Məclis 15 məsələ müzakirə edib, vacib qanunlar qəbul olunub

*Fevralın 14-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Sahibə Qafarova gündəliyə 15 məsələnin daxil edildiyini bildirib. Sonra ədliyyə nazirinin müavini Toğrul Hüseynov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2024-cü ildə fəaliyyəti haqqında məruzəni təqdim edib. Bildirilib ki, 2024-cü il Azərbaycan üçün mühüm və əlamətdar ictimai-siyasi hadisələrlə zəngin olub.*



Qeyd olunub ki, ötən il ərzində yerli özünüidarəetmənin inkişafı məsələləri diqqətdə saxlanılıb, bələdiyyələrin fəaliyyətində qanunçuluğa əməl edilməsi, qanunvericiliyin tələblərinin pozulması hallarının, onları yaradan səbəblərin aradan qaldırılması, bələdiyyələrə göstərilən metodoloji köməkliyin gücləndirilməsi istiqamətində işlər davam etdirilib.

Diqqətə çatdırılıb ki, hesabat ilində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 102 min 831, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 2557 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə 99 min 838 aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Normativ-hüquqi aktların tələblərinə zidd olan 2594 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Qanuna əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilib. Ümumilikdə həm aktlar həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı 2600-dən çox aktın dəyişdirilməsi və ya ləğv edilməsi təklif olunub. Bələdiyyələrin fəaliyyəti ilə bağlı baxılmış 4337 müraciətdən 463-ü təmin edilib. Şəhid ailəsi üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusilə nəzarətdə saxlanılıb və belə müraciətlərdən 108-i təmin olunub.

Bildirilib ki, ölkəmizdə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə 2024-cü il ərzində Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanları, o cümlədən Prezident Administrasiyası, Milli Məclis və onun aidiyyəti komitələri ilə sıx əməkdaşlıq davam etdirilib. Sonra Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi barədə bu komitənin rəyini diqqətə çatdırıb.

Milli Məclisin sədri Sahibə Qafarova hesabatın ətraflı hazırlandığını, əvvəlki illərdən fərqli olduğunu, bir çox istiqamətlərdə görülən işlər, habelə gələcək planlar haqqında məlumat verildiyini bildirib. Nazir müavini Toğrul Hüseynov müzakirələr zamanı səsləndirilən fikirlərin Ədliyyə Nazirliyi tərəfindən növbəti ildə hazırlanacaq məruzədə dəyərləndiriləcəyini və müvafiq işlərin görüləcəyini bildirib. Sonra Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2024-cü ildə fəaliyyəti haqqında məruzə nəzərə alınıb.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, layihədə normaların daha aydın və birmənalı ifadə edilməsi məqsədi ilə dəyişikliklər təklif edilir və həmin dəyişikliklər mahiyyətcə dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Qeyd olunub ki, sənəddə nəzərdə tutulan dəyişikliklər texniki və terminoloji xarakter daşıyır, Qanunun mətninin ifadə tərzinin daha aydın və dəqiq olması məqsədi ilə təklif edilir. Nurlan Həsənov Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinin mahiyyəti barədə danışıb. Hər üç qanun layihəsi səsə qoyularaq qəbul edilib. Gündəliyin digər 6 məsələsi ikinci oxunuşda qanun layihələri olub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini təqdim edib.

Azər Əmiraslanov "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə söhbət açıb.

Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova "Sosial sığorta haqqında" Qanununda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsindən bəhs edib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Nurlan Həsənov Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin qalan məsələlərinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev gündəliyin növbəti məsələsi olan "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Komitə sədri bildirib ki, layihə korrupsiyaya qarşı mübarizə üzrə səmərəliliyin artırılması və şəffaflığın gücləndirilməsi məqsədilə bir sıra normaların təkmilləşdirilməsini və yeni normaların əlavə edilməsini nəzərdə tutur.

Gündəliyin on ikinci məsələsi olan "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib.

O bildirib ki, qanunun qüvvədə olan müddəalarına əsasən, Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə və orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirdikləri zaman müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada mövsümi paltar və ayaqqabı, habelə respublika üzrə orta əməkhaqqının iki mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunurlar.

Qeyd olunanlara əsasən, daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi, birdəfəlik pul vəsaitinin konkret məbləğdə ödənilməsi və bununla da vətəndaş məmnunluğunun artırılması məqsədilə Qanunun 5-ci maddəsinin altıncı hissəsində müvafiq dəyişiklik təklif edilib.

Sonra Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar diqqətə çatdırıb ki, layihə hərbi qulluqçuların sosial rifahının bu sahədə inzibati məsuliyyət tədbirlərinin gücləndirilməsi vasitəsilə yaxşılaşdırılmasına xidmət edir.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, Azərbaycan Prezidenti tərəfindən təqdim edilən qanun layihəsi silahla, döyüş sursatı, partlayıcı maddələr və qurğularla davranma, onların dövriyyəsi sahəsində ictimai təhlükəsizliyin gücləndirilməsi məqsədi daşıyır. Azər Əmiraslanov isə "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib.

Qeyd edilib ki, "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 22 dekabr tarixli qanunla mühasibat uçotunu elektron formada aparmalı olan mühasibat uçotu subyektlərinin dairəsi müəyyən edilib. Buraya dövriyyəsi yüksək olan iri və orta sahibkarlıq subyektləri, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan publik hüquqi şəxslər, eləcə də fəaliyyəti xüsusi qanunlar əsasında tənzimlənən vergi ödəyiciləri aid edilib. Bu gün təqdim edilən layihəyə əsasən, büdcə təşkilatlarında da mühasibat uçotunun elektron formada aparılması təklif olunur. Qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

# "Artıq Rusiya Azərbaycanla bərabərhüquqlu müstəvidə danışmaq məcburiyyətindədir"

*"Çox təəssüflə qeyd etmək istəyirəm ki, son dövrlərdə Rusiya tərəfindən Azərbaycana yönəlik bir aqressiya nümayiş etdirilməkdədir. Biz onsuz da dəfələrlə vurğulamışıq ki, ən azından son 200 il ərzində Azərbaycanın başına gələn bəlaların kökündə Rusiya amili olubdur.*



İstər Rusiya imperiya dönəmində olduğu dövrdə, istər SSRİ dönəmində Azərbaycana yönəlik bir ədalətsiz mövqe, işğalçılıq siyasəti yürüdülübdür, Azərbaycan əraziləri sovetlər dönəmində Azərbaycan ikiyə parçalanıb elə Rusiya -İran arasında bağlanmış 13 və 1828-ci il müqavilələri ilə Türkmənçay-Gülüstan müqavilələri ilə Azərbaycan işğal olunubdur". Bu sözləri SİA-ya açıqlamasında deputat Arzuxan Əlizadə deyib. Arzuxan Əlizadə sözlərinə belə davam edib: "1920-ci ildə də Azərbaycan Xalq Cümhuriyyəti işğala məruz qaldı, süquta uğradıldı. Burada da Rusiya amili var idi. 70 il ərzində Azərbaycanın 20 min kvadrat kilometrdən çox ərazisi Azərbaycanın razılığı olmadan Ermənistana peşkəş edilibdir. Repressiyalar, qanlar-qadalar bütün bunlar Rusiyanın Azərbaycana yönəlik siyasətinin nəticələridir.

O da sirr deyil ki, Qarabağ probleminin ümumiyyətcə kökündə Rusiya amili olubdur və Azərbaycan torpaqlarının işğala düşməsində 30 il ərzində işğal altında qalmasında ermənilər tərəfindən əslində burada da Rusiya amili var idi. Rusiyanın təsiri olmadan, Rusiyanın dəstəyi olmadan ermənilər bunu edə bilməzdilər. Nəhayətdə biz öz gücümüzə torpaqlarımızı işğaldan azad etdik və artıq Rusiya Azərbaycanla bərabər müstəvidə, bərabərhüquqlu müstəvidə danışmaq məcburiyyətindədir. Bunu da həzm eləyə bilmirlər.

Ötən ilin dekabrın 25-də Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin Rusiya hava məkanında Qroznu yaxınlığında vurulması məsələləri bir qədər də məsələni gərginləşdiribdir. Məsələ burasındadır ki, Azərbaycanın haqlı tələblərinə və artıq təyyarənin birbaşa Rusiya silahlı qüvvələri Rusiyanın hava hücumundan müdafiə sistemləri, raketləri tərəfindən vurulması sübut olunubdur. Bu qara qutuların emalı da ilkin hesabat da bunu deməyə əsas verir və Azərbaycan belə bir ortamda haqlı tələblər irəli sürübdür, tələblər də ondan ibarətdir ki qarşı tərəf Azərbaycandan üzr istəməlidir, həmçinin bu cinayət əməlini törətmiş və onun törədilməsinə qərar vermiş, əmr vermiş tərəf kimlərdisə şəxslər mütləq mənada cinayət məsuliyyətinə cəlb olunaraq cəzalandırılmalıdırlar. Eyni zamanda Rusiya günahını etiraf etməklə həm Azərbaycan Hava Yollarına, həm də həmin sərnişin təyyarəsində həyatını itirən, eləcə də zərər görən şəxslərin özlərinə və ailələrinə təzminat ödəməlidir."

**Ayşən Vəli**

# Dövlət Statistika Komitəsində 2024-cü ilin yekunlarına və 2025-ci ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib

***Dövlət statistika orqanlarının 2024-cü ildəki fəaliyyəti və 2025-ci ildə qarşıda duran vəzifələrlə bağlı fevralın 14-də Dövlət Statistika Komitəsi aparatı şöbələrinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, şəhər və rayon statistika idarələrinin rəhbərlərinin iştirakı ilə geniş kollegiya iclası keçirilib.***




Dövlət Statistika Komitəsinin Mətbuat Xidmətindən bildirilib ki, kollegiyanın sədri Tahir Budaqov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə 2024-cü ildə bütün sahələrdə sistemli və ardıcıl xarakterli islahatların həyata keçirildiyini, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirildiyini, ölkəmizin dünyada nüfuzunun daha da artdığını diqqətə çatdırıb.















Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Komitə tərəfindən həyata keçirilən islahatlar və qurumun 2024-cü ildəki fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi 2024-cü ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuşdur. Bununla yanaşı, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyadan, “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”ndan, “2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn vəzifələrin icrası, eləcə də dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə Komitə tərəfindən zəruri işlər görülmüş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində milli statistika sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsi, inzibati məlumatlardan istifadəni genişləndirməklə ölkənin dayanıqlı inkişafı ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsi və bu hədəflərə çatmaq üçün statistika sahəsində maddi-texniki bazanın və kadr potensialının möhkəmləndirilməsi istiqamətində kompleks tədbirlər davam etdirilmişdir. Rəsmi statistik hesabatların elektron qəbulu səviyyəsinin artırılması məqsədilə görülmüş tədbirlər nəticəsində “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidməti vasitəsilə hesabat formalarını elektron şəkildə təqdim edən hüquqi və fiziki şəxslərin xüsusi çəkisi 97,0 faizi ötmüşdür.

UNICEF-lə əməkdaşlıq çərçivəsində ölkəmizdə həyata keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu (MICS) üzrə işlər başa çatdırılmış və onun nəticələrinə dair hesabat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 526s nömrəli Sərəncamı ilə yaradılmış İstiqamətləndirici Komitənin 2024-cü il 4 sentyabr tarixli qərarı ilə təsdiq olunmuş, nəşr edilərək istifadəçilərə çatdırılmış, elektron variantı Dövlət Statistika Komitəsinin və UNICEF-in rəsmi internet səhifələrində yerləşdirilmişdir.

“2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 04 oktyabr tarixli, 357 nömrəli Qərarının icrası olaraq, 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunun 3 inzibati ərazi dairəsi üzrə ümumilikdə 1942 təsərrüfatda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndəsinin iştirakı ilə siyahıyaalma heyəti üçün təlim təşkil olunmuş, siyahıyaalma zamanı ilk dəfə CAPI (Computer Assisted Personal Interviewing – kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların planşet tipli kompüterlərə (planşetlərə) daxil edilməsi üçün hazırlanmış xüsusi proqram təminatları və siyahıyaalma vərəqəsi uğurla sınaqdan keçirilmiş, sayıcılar tərəfindən məlumatlar planşetlər vasitəsilə toplanmış və məlumat bazasına ötürülmüşdür.

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilmiş, müvafiq dövlət qurumları ilə birgə əlavə olaraq 19 yeni göstərici üzrə məlumatların hazırlanmasına nail olunmuş və bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 140-a çatdırılmışdır ki, onlardan da 109-u milli prioritet kimi müəyyən edilmiş göstəricilərdir. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 Dayanıqlı İnkişaf Məqsədinə minatəmizləmə fəaliyyəti ilə bağlı 18-ci Məqsədin əlavə edilməsi təşəbbüsü ilə 2024-cü ildə ilk dəfə olaraq milli 18-ci DİM (“Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər”) göstəriciləri üzrə məlumatların toplanılmasına başlanmış və 14 göstərici üzrə məlumat istehsalı təmin edilmişdir.

Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. 2024-cü ildə internet səhifəsinə 91,3 faizi ölkə ərazisindən, 8,7 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 10,4 min istifadəçi daxil olmuşdur.

Müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilmiş, 52 təhlili məruzə və 125 mətbu-məlumat hazırlanmışdır. Statistik məcmuə və bülletenlərin elektron versiyaları Komitənin veb-səhifəsində yerləşdirilmişdir. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 264 təhlili məruzə hazırlanmışdır. MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ilin 5 dekabr tarixində keçirilmiş 71-ci iclasında qəbul edilmiş qərara əsasən, 2025-ci ildə sözügedən Şuraya rəhbərlik Azərbaycana keçmişdir.

Komitənin 87 əməkdaşı müxtəlif beynəlxalq təşkilat və xarici ölkələrin milli statistika qurumları tərəfindən təşkil edilmiş 63 onlayn tədbirdə, 60 əməkdaşı isə əyani formada keçirilən 64 tədbirdə iştirak etmiş, həmçinin Komitənin mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər. Sonda kollegiya iclasına yekun vuran Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin “Dövlət Nəzarəti İnformasiya Sistemi” vasitəsilə 2023-cü ilin yekunları üzrə qiymətləndirilməsinin nəticələrinə görə Komitənin mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşdığını diqqətə çatdıraraq qarşıda duran vəzifələrin bundan sonra da vaxtında və keyfiyyətlə icrası üçün qurumun müvafiq strukturlarına konkret tapşırıqlar vermişdir.

# Azərbaycan-Çin əməkdaşlığı: Davosdan verilən mesajlar

*Azərbaycan Respublikası müstəqilliyini yenidən qazandıqdan sonra sabitlik, əməkdaşlıq, çoxtərəflilik prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirməyə başlamışdır. Ölkəmiz beynəlxalq sammitlərdə fəal iştirak edərək regional sülhün qorunması və iqtisadi tərəqqinin təmin edilməsi istiqamətində önəmli işlərə imza atmışdır. Respublikamızın beynəlxalq tədbirlərdə aktiv iştirakı, onu qlobal mühitdə etibarlı tərəfdaş və sülhsevər dövlət kimi formalaşdırmışdır. Azərbaycan enerji təhlükəsizliyi, multikulturalizm və humanitar əməkdaşlıq sahələrində də dünya ölkələri ilə genişmiqyaslı əlaqələr quraraq nüfuzunu gücləndirir.*



*Ziyafət Əsgərov*
*Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini*

Cari ilin 20 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfər etmişdir. Dövlətimizin başçısı həmin gün Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib. Cənab Prezident müsahibəsində ilk növbədə Azərbaycanın son illərdə beynəlxalq arenada əldə etdiyi mühüm uğurlardan bəhs etdi. Ölkəmizin ərazi bütövlüyünü təmin etməsi, Cənubi Qafqaz və Xəzər regionunda strateji mövqeyini möhkəmləndirməsi, qlobal təşkilatlarla əməkdaşlığını genişləndirməsi və beynəlxalq iqtisadi layihələrdə iştirakını artırması bu uğurların əsas göstəriciləridir.

Son illərdə ən mühüm nailiyyətlərimizdən biri də dövlətimizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi olmuşdur. Ölkəmiz bu məqsədə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun şəkildə nail olmuşdur. Təxminən 30 il ərzində Azərbaycanın əsas milli ideyası məhz işğal altındakı torpaqlarını azad etmək idi. Lakin bu müddət ərzində beynəlxalq hüquq normaları effektiv şəkildə işləməmiş və beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar kağız üzərində qalmışdır. Və nəhayət ki, tarixi ədalət İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində tamamilə bərpa olundu.

Dövlət başçısı Azərbaycanın uzun illərdir Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq üçün apardığı danışıqlardan da bəhs etdi. Lakin bu proses hələ də başa çatmayıb. Bunun əsas səbəbi dünya ticarətində mövcud olan proteksionizm, ikili standartlar və qeyri-bərabər şərtlərdir. Azərbaycan bu təşkilata qoşulmaq üçün üstünlükləri və riskləri ciddi şəkildə qiymətləndirir. Ölkəmizin iqtisadiyyatının əsas hissəsi enerji resurslarının ixracına əsaslanır ki, bu da ÜTT üzvlüyü üçün əsas şərt deyil. Lakin qeyri-neft sektorunun inkişafı və yeni bazarlara çıxışın təmin olunması üçün təşkilata qoşulma məsələsi diqqətlə nəzərdən keçirilir. Azərbaycan danışıqlar prosesində ən əlverişli şərtləri əldə etməyə çalışır və iqtisadi maraqlarını qorumağa üstünlük verir.

Cənab Prezidentin müsahibəsində vurğuladığı məsələlərdən biri də Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibət oldu. Belə ki, 2023-cü ildə dövlətlərimiz rəsmi olaraq strateji tərəfdaşlıq Bəyannaməsi imzaladılar. Strateji tərəfdaşlıq qarşılıqlı etimad və birgə maraqlara əsaslanır. Azərbaycan Çinlə təkcə ÜTT-yə üzvlük məsələsində deyil, həmçinin digər beynəlxalq platformalarda da əməkdaşlığını genişləndirmək niyyətindədir. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) müşahidəçi deyil, dialoq üzrə tərəfdaş statusuna malikdir. Bu status ölkəmizin təşkilatla daha sıx əlaqələr qurmaq istəyini göstərir. ŞƏT-in əsas üzv ölkələri Azərbaycanla yaxşı və dost münasibətlərə malikdirlər. Ölkəmizin coğrafi mövqeyi və nəqliyyat infrastrukturu ŞƏT ilə əməkdaşlıqda böyük üstünlüklər yaradır. Azərbaycan Şərqdən Qərbə gedən nəqliyyat yolları üzərində yerləşir və bu, onun regional və qlobal iqtisadi inteqrasiyasını gücləndirir.

Prezident İlham Əliyev Azərbaycanın sosial siyasət sahəsində əldə etdiyi ciddi uğurlardan da bəhs etdi. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar və sosial proqramlar nəticəsində yoxsulluq səviyyəsi təxminən 5 faizə qədər azaldılıb. İqtisadi baxımdan sabit və inkişaf etmiş ölkələr beynəlxalq siyasətdə daha çox təsir gücünə malikdirlər. Azərbaycan iqtisadi və sosial göstəricilərini yaxşılaşdırmaqla, beynəlxalq təşkilatlar və böyük güclərlə daha bərabərhüquqlu əməkdaşlıq qurmağa nail olur.

Ölkə başçımızın müsahibəsində söz açdığı digər məsələ isə dövlətimizin apardığı şaxələnmiş siyasət oldu. Belə ki, Azərbaycanın xarici siyasəti yalnız regional məqsədlərə deyil, eyni zamanda, konkret iqtisadi və strateji maraqlara əsaslanır. Bu çərçivədə ölkəmiz təkcə Çinlə deyil, həm də Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalayıb. Bundan əlavə, Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannamələrimiz də mövcuddur. Bütün bunlar Azərbaycanın qlobal arenada özünü etibarlı tərəfdaş kimi göstərməsinə imkan yaradır. Xarici siyasət daxili siyasətin davamıdır və Azərbaycan bu prinsipi əsas götürərək milli maraqlarına uyğun şəkildə beynəlxalq əlaqələrini formalaşdırır.

Cənab Prezident Azərbaycan ABŞ münasibətlərindən də bəhs etdi. Onun sözlərinə görə iki dövlət arasında münasibət müxtəlif dövrlərdə fərqli dinamikaya malik olub. Prezident Trampın dövründə ikitərəfli əlaqələr müsbət məcrada inkişaf edirdisə, Bayden administrasiyasının siyasəti nəticəsində bu münasibətlərdə müəyyən gərginliklər yaranmışdı. Lakin ABŞ-dakı siyasi dəyişikliklər fonunda yeni bir dövrün başlanması gözlənilir. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, ABŞ-da sabit və balanslı siyasət yürüdülməsi dünya üçün daha təhlükəsiz şərait yaradacaq. Dövlət başçımız Azərbaycanın beynəlxalq ticarət və logistika sahəsindəki hədəflərindən də söz açdı. Hazırda ölkənin dəniz ticarət limanı 15 milyon ton yük aşırma qabiliyyətinə malikdir, lakin bu həcm yaxın gələcəkdə kifayət etməyəcək. Buna görə də, növbəti 5-6 il ərzində yük daçıma gücünü 25 milyon tona çatdırmağı planlaşdırırıq. Bu məqsədlə dəniz ticarət limanlarının və dəmir yolu infrastrukturunun genişləndirilməsi üçün ciddi maliyyə yatırımları həyata keçirilir. Azərbaycanın tranzit ölkə olaraq strateji mövqeyi Orta Asiya ilə Avropa arasında mühüm nəqliyyat dəhlizlərini formalaşdırmaq üçün əhəmiyyətlidir. Xəzər dənizi üzərindən Azərbaycana gələn marşrutun əhəmiyyəti artdıqca, ölkəmiz bu imkanlardan maksimum istifadə etməyə çalışır. “Bir Kəmər, Bir Yol” təşəbbüsü çərçivəsində Çin hökumətinin dəstəyi ilə Azərbaycanın nəqliyyat və logistika imkanları genişlənir. Bu, təkcə iqtisadi inkişafa deyil, həm də regional sabitliyə və təhlükəsizliyə töhfə verir. Azərbaycanın enerji siyasəti yalnız qazıntı yanacaqlara əsaslanmır. Ölkəmiz əldə etdiyi gəlirləri yaşıl enerjiyə və texnologiyalara yönəltməkdədir. 2027-ci ilə qədər Azərbaycan 2 giqavat, 2030-cu ilə qədər isə 6 giqavat Günəş və külək enerjisi hasil etməyi hədəfləyir. Bu, ölkənin enerji sektorunda bir inqilab olacaq və Azərbaycanın yaşıl keçidə aktiv qoşulduğunu göstərəcək.

Yaşıl texnologiyalar sahəsində Çin istehsalı olan Günəş panelləri və batareyalar Azərbaycan üçün əsas seçimdir. Bu texnologiyaların istifadəsi investorlara keyfiyyətli və rəqabətədavamlı məhsullar təqdim etməyə imkan yaradır. Azərbaycanın enerji təchizatı üzrə işçi qrupları ən yaxşı batareyaların Çində istehsal edildiyini müəyyən edərək, bu sahədə əməkdaşlığını gücləndirir. Prezident İlham Əliyevin Davosda Çin mediasına verdiyi müsahibə, Azərbaycanın regional və qlobal miqyasda artan rolunu bir daha nümayiş etdirdi. Ölkəmizin strateji inkişaf hədəfləri, nəqliyyat və enerji sektorunda genişlənən imkanlar, yaşıl texnologiyalara keçid və beynəlxalq əməkdaşlıq siyasəti Azərbaycanı regionun aparıcı dövlətlərindən birinə çevirir.

## Tahir Budaqovla Qırğız Respublikasının Azərbaycandakı səfiri Maksat Mamıtkanov arasında görüş keçirilib



Fevralın 14-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanov arasında görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında





əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, bu əlaqələrin inkişafında hər iki dövlət başçısının fəaliyyətləri xüsusi vurğulanmış, 8 noyabr 2021-ci il tarixində – Azərbaycanın 44 günlük müharibədə qələbəsinin ildönümü



münasibətilə Qırğız Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təbrik bəyanatının verildiyi qeyd edilmişdir. Bütün istiqamətlərdə olduğu kimi statistika sahəsində də əməkdaşlığın vacibliyinə toxunularaq statistikanın bir sıra sahələri üzrə Dövlət Statistika Komitəsinin təcrübəsinin öyrənilməsi məqsədilə 2023-cü ildə Qırğız Respublikası Milli Statistika Komitəsinin bir qrup nümayəndəsinin Bakıda təlim səfərində olduğu xatırlanmış, təlim müddətində iştirakçılara Azərbaycanın milli statistika sistemi, rəsmi statistikanın istehsalında inzibati məlumatlar və Big Data-dan istifadə, keyfiyyətin idarə edilməsi və keyfiyyətə nəzarət cədvəllərinin statistikada tətbiqi, statistik məlumatların toplanması və emalı prosesində informasiya texnologiyalarından istifadə, statistik məlumatların yayılması və ictimaiyyətlə əlaqə işlərinin təşkili, Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin fəaliyyət istiqamətləri, seçmə statistik müayinələrin təşkili, rəsmi statistikada innovativ metodların tətbiqi və təlim məsələləri, “Statistika xəbərləri” elmi-praktik jurnalı barədə təqdimatlar keçirildiyi məmnunluqla qeyd edilmişdir.

Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanov səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirmiş, iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun imzalanmasının məqsədəuyğunluğunu bildirmişdir. Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Aleksey Fenenko: Tramp administrasiyası Paşinyana qarşı çıxır



**- Ermənistanın baş naziri Aleksey Valerieviç ABŞ-a çoxgünlük işgüzar səfər edib. Sizcə, məqsəd nə idi və o, buna nail oldumu?**

- Hesab edirəm ki, ABŞ-da Tramp administrasiyası ABŞ-ın vitse-prezidenti Venslə Nikol Paşinyanla görüşlə nümayişkaranə şəkildə Ermənistanın baş nazirinə stavka etdiyini və onunla dialoqa hazır olduğunu göstərdi. Yeri gəlmişkən, Vansla Paşinyan Parisdə yenidən əlaqə saxlayıblar.

Amma Rusiya üçün bu barədə düşünmək üçün böyük səbəb var: əgər ABŞ Paşinyana onun KTMT-dən mümkün çıxması ilə bağlı bəyanatları fonunda bu cür davranırsa, bu, özlüyündə onu göstərir ki, Amerika üçün Ermənistan istiqaməti prioritetlərdən biridir.

Unutmayaq ki, Tramp administrasiyası işə yeni başlayıb. ABŞ-ın vitse-prezidenti Vens isə artıq erməni istiqamətinə maraq göstərib. Təbii ki, onlar Ermənistanı özlərinə bərabər hesab etmirlər. Amma yenə də.

ABŞ-da Paşinyan hamı ilə görüşüb. Eyni zamanda, Ermənistan hökumətinin başçısı Rusiya ilə, o cümlədən İrəvanla Bakı arasında sülh sazişi məsələsində daim gərginliyi artırır. Və bütün istiqamətlərdə o, əsasən Qərbin dəstəyinə arxalanır.

Paşinyan yaxşı başa düşür ki, Qərb onunla razılaşdıqca və onu dəstəklədikcə baş nazir postunda qalacaq. Ermənistanda qərbyönümlü QHT-lər o qədər güclənib ki, lazım gələrsə, indiki baş nazirə asanlıqla əvəzləyici tapa bilirlər. Ona görə də o, çox gözəl başa düşür ki, onun gücü ABŞ-ın dəstəyindən asılıdır.

Tramp diqqətini ilk növbədə Yaxın Şərqə, bu və ya digər dərəcədə Ukraynaya

*Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko Ermənistanın baş nazirinin ABŞ və Fransaya səfərlərini "Moskva-Baku" portalı üçün şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*

yönəldib. ABŞ Ermənistana maraq göstərməklə yanaşı, Paşinyana respublika uğrunda vuruşmayacaqlarını və Türkiyə ilə ciddi münaqişə etməyəcəklərini nümayiş etdirir. Deməli, ənənəvi olaraq Paşinyanın çiyninə vururlar və gələcəkdə deyəcəklər - afərin, əgər sən özünü Rusiyadan azad edib KTMT-dən çıxsan, əladır, səni demokrat, liberal, nə istəsən, elan edəcəyik. Amma biz öz hesabımıza sizə real kömək etməyəcəyik. Yəni Ermənistan onlar üçün o qədər də önəmli deyil.

Açığı, heç kim Ermənistana Qərbin müttəfiqi statusu vermir, onun "Qərbin könüllü köməkçisi" statusu var ki, bu da Rusiya üçün Cənubi Qafqazda çətinliklər yaradır.

**-Paşinyan Trampa nə təklif etdi və əksinə?**

- Paşinyan Tramp administrasiyasına İrəvan üçün anti-Rusiya mövqeyini, Aİ-dən



daha da uzaqlaşmağı və KTMT-dən çıxmağı təklif edir. Bu, Ermənistanın baş nazirinin amerikalılara təklif edə biləcəyi yeganə likvid əmtəədir.

Bunun müqabilində Paşinyan onlardan silah almaq istəyir və Azərbaycandan qisas alacağına ümid edir.

**- USAID Ermənistanı maliyyələşdirirdi. Tramp strukturu bağladıqdan sonra ABŞ-dan maliyyə axını məsələsi necə həll olunacaq?**

- Paşinyan ümid edir ki, o, başqa strukturlar vasitəsilə maliyyələşəcək. Ermənistanın baş naziri ABŞ-da o qədər müxtəlif görüşlər keçirdi, təbii ki, o, maliyyə, dəstək, təhlükəsizlik zəmanəti və ideal olaraq Ermənistanda Amerika hərbi bazasının yaradılmasını təmin etmək istəyirdi.

**-Paşinyan ABŞ-dan sonra Fransaya getdi...**

- Paşinyan ümumiyyətlə, harda daha çox verəcəklərsə o yerdə dəstək almağa çalışır. Ermənistanın baş naziri kim daha çox verəcəksə, özünü ona satmağa hazırdır. Üstəlik, Paşinyan Fransada Qərb liderlərinin bir araya gəldiyi süni intellekt sammitində iştirakı ilə Ermənistanın Avropa "ailəsinə" qoşulmağa can atmasını istəyirdi. Sammit çərçivəsində o, ABŞ-ın vitse-prezidenti, Kanadanın baş naziri, Avropa Komissiyasının rəhbəri və s. Görüşdü. Təbii ki, o, bu cür təmaslarla öz mövqeyini möhkəmləndirirdi.

Birləşmiş Ştatlarda onunla işləmirsə, o, Fransadan soruşacaq ki, onlar da onunla işləmirsə, o, yenidən ABŞ-a üz tutacaq. Və o, həm də onların hər ikisinə eyham vuracaq ki, o, onların prioritet müttəfiqi olmağa hazırdır, əgər razılaşmasalar, o zaman onu şantaj edəcək və digəri üçün prioritet müttəfiq olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Qrip peyvəndinin hansı təsirləri var?

***"Qrip peyvəndi, influenzaya (qripə) qarşı immunitetin gücləndirilməsi məqsədilə tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında həkim pediatr Səbinə Məmmədova deyib. Səbinə Məmmədova sözlərinə belə davam edib: "Peyvənd, həm uşaqlar, həm də böyüklər üçün tövsiyə edilir, çünki qripin ağır formaları, xüsusilə zəif immun sisteminə malik olanlar, yaşlılar və kiçik uşaqlar üçün təhlükə yarada bilər. Həkimlər qrip peyvəndini uşaqlara və böyüklərə aşağıdakı faydaları nəzərə alaraq tövsiyə edirlər:***





HƏKİM DANIŞDI

**1. Qripdən qorunma**

Qrip peyvəndi, influenzanın ən çox yayılan növlərinə qarşı immunitet yaratmaq üçün hazırlanır. Hər il, qrip virusunun mutasiyaları səbəbi ilə yeni vaksin tərtib olunur. Peyvənd qripin qarşısını almasa da, onun yüngül keçməsinə kömək edir.

**2. Ağır simptomların qarşısını almaq**

Qrip peyvəndi, qrip xəstəliyinin ağırlaşmasının qarşısını alır. Həmçinin, xəstəliyin daha uzun müddət davam etməsini və ağır



fəsadlara, məsələn, pnevmoniya, ürək və böyrək problemlərinə yol açmasını əngəlləyir.

**3. Vaksinasiya ilə toplum mühafizəsi**

Qrip peyvəndi, geniş əhali arasında tətbiq edildikdə, toplumda kollektiv immunitet (yumşaq şəkildə toplum mühafizəsi) yaradır. Bu, virusun yayılma ehtimalını azaldır və xəstəliyin daha az insan arasında yayılmasına səbəb olur.

**4. Xüsusi risk qruplarının qorunması**

Xüsusilə risk altında olan qruplar – yaşlılar, hamilə qadınlar, astma və digər tənəffüs xəstəlikləri olanlar, xroniki xəstəliklərdən əziyyət çəkənlər və kiçik uşaqlar – qrip peyvəndindən faydalana bilərlər. Bu qruplarda qrip ağır keçə bilər və ciddi fəsadlara yol açar.

**5. Xəstəliklərin qarşısını almaqla xəstəxana yükünün azaldılması**

Qripin geniş yayılması, tibbi müəssisələrə əlavə yük gətirir. Peyvənd, xəstəliklərin azaldılması ilə xəstəxanalarda olan xəstələrin sayını da azaldır.

Uşaqlara və böyüklərə verilmə qaydaları:

Uşaqlar: Uşaqlara, xüsusən 6 aydan 5 yaşa qədər olanlara peyvənd verilməsi tövsiyə olunur. İlk dəfə peyvənd olunan uşaqlara iki doza verilə bilər, sonra isə hər il bir doza kifayətdir.

Böyüklər: 18 yaşdan yuxarı böyüklərə hər il qrip peyvəndi təklif edilir. Xüsusən, 65 yaş və yuxarı şəxslərə, hamilə qadınlara, sağlamlıq işçilərinə və digər yüksək risk qruplarına tövsiyə olunur.

Qrip peyvəndinin təsiri təxminən bir neçə həftə sonra başlayır və ildə bir dəfə təkrarlanmalıdır. Peyvəndin ən təsirli olduğu zaman, adətən, qışın əvvəlində, qrip mövsümü başlamazdan əvvəl edilir".

***Ayşən Vəli***

# Ukrayna məsələsində QƏRBİ MARAQLANDIRAN RESURSLAR

*Müharibənin bu qədər davam etməsi, ABŞ başda olmaqla, bəzi dövlətlərin ukraynalıları guya “dəstəkləməsi” Ukraynaya “marağın” olması fonunda diqqəti cəlb edir. Bu vaxta qədər heç bir dövlətin maraqlarını düşünməyən Qərbin indi Ukrayna ilə bağlı bu qədər “həssas yanaşma” sərgiləməsi əlbəttə ki, səbəbsiz ola bilməz. Heç şübhəsiz ki, bu məsələdə yenə də Qərbin öz maraqları var və Ukraynanın hansı ehtiyatlara sahib olmasını nəzərə aldıqda məsələnin kökündə nəyin dayandığı bəlli olur. Bəlli olur ki, məhz Ukrayna məsələsində Qərbi maraqlandıran ancaq resurslardır.*




### Məsələnin kökündə faydalı ehtiyatların dayandığı bəlli olur

Ortaya çıxan bəzi məntiqi suallar məsələnin nə yerdə olduğunu təhlil etməyə imkan verir. Hər halda, amerikalılar ukraynalılara o dərəcədə məftun olmayıblar ki, onların suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü üçün bu qədər vəsait xərcləməyi məqbul hesab etsinlər. Burada bir məqamın olduğu əlbəttə ki, özünü göstərməyə başlayır. Azov dənizi və Donbas üzərində nəzarəti Rusiya tərəfinin ələ keçirməsindən Qərb “narahat” olduqca öz niyyətinin, marağının nədən ibarət olduğunu ifşa etmiş olur. “Ayının min oyunu bir armudun başındadır”, zərb məsəlində olduğu kimi, elə Qərb də bu oyunları nədən ötrü etdiyini yaxşı bilir. Məsələ burasındadır ki, indi bunu bütün dünya yaxşı başa düşür, təkcə özləri yox. İstənilən halda, məsələnin kökündə faydalı ehtiyatların dayandığı bəlli olur. Bəlli olur ki, Qərbi maraqlardıran resurslardır və onların məhs rusların əllərinə keçməsi ən narahatedici məqam hesab olunur. Belə görünür ki, Rusiyanın unikal resursları ələ keçirmələrinə görə Amerikalılar təəssüf hissi keçirirlər. Bunun da səbəbi yaxşı məlumdur.

### Ukraynanın ərazilərinin nəyə görə Qərbə lazım olduğunu başa düşən təkcə amerikalılar deyil və aydındır ki, maraq dairəsində olan ancaq resurslardır

Bəzi statistik məlumatlara görə, Ukrayna mineral ehtiyatlarının artıq yarısını itirib. Üstəlik, qalan hissəsi də nəzarətdən çıxacaq kimi görünür. Bax elə məhz buna görə də Qərb isterika içindədir. Rusiya qüvvələrinin yaxınlaşması səbəbindən Ukrayna kömürün hasil olunduğu Krasnoarmeyskdəki mədənləri bağlamaq məcburiyyətində qalıb. Məsələ burasındadır ki, dəmir və polad istehsalı üçün xammal lazımdır və belə bir müəssisənin “itirilməsi” birbaşa Ukraynanın müdafiə sənayesinə təsir göstərəcəyi bəlli məsələdir. Təsadüfi deyil ki, Ukraynanın nəzarətində olan sonuncu kömür mədəninin yerləşdiyi Udaçnoye kəndində hazırda şiddətli döyüşlər gedir. Kiyev kəndi “saxlamaq” üçün ehtiyatlarını tam olaraq səfərbər edir. Məqsəd vaxt qazanmaq və Dnepropetrovsk vilayətində istehkamlar qurmaq niyyəti ilə zaman əldə etmək və bununla da bir çox mədənləri əldən verməməkdir. Qərb də məhz buna görə “kömək”, eləcə də “dəstək”vəd edir. Ortada mədənlər var və buna görə də bərk şirnikləndiyi göz önündədir.

Bilirik ki, söhbət kömür ilə zəngin yataqlardan gedir. Heç də amerikalılar, heç də Qərb adi torpaqlar və ərazilər üçün “canfəşanlıq” edərək, özünü “müdafiəçi” kimi göstərmir. “Donbass kömür yataqları ilə məşhurdur. Bununla yanaşı, ərazisi qiymətli ehtiyatların əsl “anbarı” sayılır. Məsələn, litiumu və qrafiti nümunə olaraq göstərə bilərik, hansı ki, onlarsız akkumulyatorlar və elektronika istehsal etmək mümkün deyil. Eyni zamanda, onu da diqqətə çatdıraq ki, Qərbin göz dikdiyi titan məhz poladdan da qat-qat möhkəmdir, lakin eyni zamanda 45% də ondan yüngüldür. Buna görə də, tanklar, ballistik gəmilərin istehsalında istifadə olunur və böyük əhəmiyyət kəsb edir”, deyə “Təhlükəsizlik Şurasının” aparıcısı İqor Şevçuk çox aydın şəkildə bəzi məqamları izah etməyə çalışıb. Əslində, bütün bunlar onu deməyə əsas verir ki, Ukraynanın və onun keçmiş ərazilərinin hansı resurslarının Qərbə lazım olduğunu başa düşən təkcə amerikalılar deyil. Hər kəs çox yaxşı bilir ki, indi maraq dairəsində olan ancaq resurslardır.

### Qərbi maraqlandıran resurlar olduğu üçün hər zaman həmin resursların olduğu ərazilərin qaytarılmasına böyük “önəm” verir

Müharibə başlayandan bəri Ukrayna təbii ehtiyatlarının yarısına nəzarəti artıq itirib. Bütün qiymətli mineralların, filizin və kömürün məhz Donbas və Zaporojye vilayətinin ərazisində yerləşdiyini hamı çox yaxşı bilir. Xüsusən də amerikalılar bunu yaxşı bilirlər. Ona görə də məhz həmin bu ərazilərin qaytarılması Kiyev üçün çox “vacib” hesab olunub. Sual oluna bilər ki, niyə amerikalılar həmin bu ərazilərin qaytarılmasına maraqlı görünməlidirlər? Əslində, amerikalılar üçün, Qərb üçün Ukrayna ərazisinin hansının qaytarılmasının nə fərqi olmalı idi axı? “Donetsk, Luqansk, Zaporojya və Xerson vilayətlərinin bir hissəsi mineralların bütün resurs bazasının təxminən yarısını təşkil edir. Ukraynanın bütün ehtiyatları 20-25 trilyon qrivna həcmində qiymətləndirilir, hansı ki, onların yarısı bu gün “işğal olunmuş” rayonlardır”, deyə Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı Viktor-Jenko bildirib. Bəlli məsələdir ki, məhz həmin ehtiyatların, həmin resursların olduğu ərazilər amerikalılar üçün daha böyük maraq kəsb edir. Deməli, ortada resurs məsələsi var və Qərbi maraqlandıran resurlar olduğu üçün hər zaman həmin resursların olduğu ərazilərin qaytarılmasına böyük “önəm” verir.

Amerika mənbələri Ukraynanın dörd litium yatağından ikisinin itirildiyini bildirir. Diqqətə çatdıraq ki, bu, dünyada ən çox axtarılan metallardan biridir, hansı ki, geoloji tədqiqatların nəticələrinə görə, Ukrayna Avropanın ən zəngin litium ehtiyatlarına malikdir. Bəs sual oluna bilər ki, Ukraynanın dörd litium yatağından ikisinin itirildiyi amerikalıları niyə düşündürməlidir və bu barədə niyə qeyd olunmalıdır? Belə çıxır ki, Qərb həmin resurslara göz dikib və məqsəd heç də Ukraynanın suverenliyi, yaxud da ərazi bütövlüyü deyil. Maraq dairəsində olan məhz resurslardır.

### Mineral ehtiyatlar naminə Kiyevə kömək etdiklərini belə Qərbdə gizlətmirlər

“Litium üçbucağına” üç ölkə daxildir. Bunlar Argentina, Boliviya və Çilidir, hansı ki, dünya ehtiyatlarının 54%-ni özündə ehtiva edir. Bəzi statistik məlumatlara görə, Avstraliyanı da əlavə etsək, bu ölkələr yer üzündəki litium ehtiyatlarının 70%-nə malikdirlər”, deyə MDB Ölkələri İnstitutunun elmi işçisi Ruslan Pankratov bildirib. Təbii ki, Ukrayna da həmin resurslara görə özünəməxsus yerə malikdir. Deməli, Qərbin, Avropanın Ukrayna resursları ilə bağlı iddialı planları var. Xüsusən də nəzərə alsaq ki, benzin və dizellə işləyən avtomobillərdən tamamilə imtina edərək elektriklə işləyən avtomobillərə keçmək planları var, deməli, məqsəd artıq bəlli olur. Diqqətə çatdıraq ki, batareyalar təxminən 10 kiloqram litium ehtiva edir və həmin metalın yataqlarının Şevçenko kəndi ərazisində yerləşməsi fonunda ərazinin 2025-ci ilin yanvarında rus ordusunun nəzarətinə keçməsi amerikalıları, Qərbi narahat etməyə başlayıb.

Bəli, artıq litium yataqlarının axtarışı maksimum həddə çatıb. Qərb həmin yataqların axtarışı ilə məşğuldur. Məlum olub ki, oxşar yataqlar bu yaxınlarda İran, Əfqanıstan, Hindistan və Serbiyada tapılıb. Məsələ burasındadır ki, İran və Əfqanıstan kifayət qədər uzaq, eyni zamanda “qeyri-sabit” ölkələrdir. Həmçinin, Hindistan da “sual” altındadır. Deməli, Ukraynanın daha çox “diqqət mərkəzində” olması buna görədir. Üstəlik, statistik hesablamalara görə, Şevçenkovskoye yatağının ehtiyatları avropalılar üçün 2050-ci ilə qədər yetərli hesab olunur. Təsadüfi deyil ki, mineral ehtiyatlar naminə Kiyevə kömək etdiklərini belə Qərbdə gizlətmirlər. “Bu, pulla bağlı müharibədir. Bilirsiniz ki, bütün Avropada nadir minerallarla ən zəngin ölkə Ukraynadır. Orada trilyonlarla dollar dəyərində faydalı qazıntılar var. Bunlar çox nadir minerallardır və 21-ci əsrdə çox vacib hesab olunur. Ukrayna ruslarla deyil, bizimlə sövdələşməyə hazırdır. Ona görə də Rusiyanın burada özünü möhkəmlətməməsinə əmin olmaq bizim maraqlarımızdadır”, deyə bəyan edən ABŞ senatoru Lindsey əslində, məsələnin kökündə nəyin dayandığını, Qərbi maraqlandıran məhz resurslar olduğunu bütün çılpaqlığı ilə ortaya qoyub. Alman televiziyasının analitik proqramı zamanı da Ukraynada demokratiyanın və ya başqa qeyri-maddi dəyərlərin qorunması haqqında bir kəlmə də danışılmayıb. Danılan yalnız “biznes maraqları” ilə bağlı məsələlər olub. “Ukraynanın təbii sərvətlərinin təxminən 80%-i Donbasdadır. Onlar Rusiyaya ötürülür. Orada çoxlu litium var, hansı ki, bu ölkədə olanlara çox ehtiyacımız var”, deyə alman jurnalist Markus Lanz aydın şəkildə etiraf edib.

### Dünyaya “hökmranlıq” etmək məqsədi ilə ABŞ titan və uran kimi resursları “ələ keçirmək” niyyəti güdür

Vaşinqton üçün isə ən vacib resurs titandır. Hər halda amerikalılar özləri daha çox bunun fərqindədirlər. Ona görə fərqindədirlər ki, məhz Donald Trampın avropalılardan fərqli olaraq, əksinə, elektromobilin inkişaf proqramını məhdudlaşdırdığının şahidi oldular. Başa düşdülər ki, əgər ABŞ daxili yanma mühərrikli avtomobillərin istehsalına davam edəcəksə, deməli, onlar üçün titan daha maraqlıdır. “Yüksək texnoloji silahları, o cümlədən lazeri, kosmosu, süni intellektə malik nə varsa hamısını eyni metallardan, titandan istifadə etmədən təsəvvür etmək mümkün deyil. Yəqin ki, hərbi-sənaye kompleksinin elə bir sahəsi yoxdur ki, orada bu metaldan istifadə olunmasın”, deyə politoloq Pankratov qeyd edib. Yəni, ruslar da yaxşı başa düşürlər ki, anti-Rusiya sanksiyaları fonunda, Amerika titan “ələ keçirmək” üçün dəridən-qabıqdan çıxır. Bu qədər vəsaitləri Ukraynaya sərf etməklə də Vaşinqton məhz həmin xammala sahib çıxmaq fikrindədir. Amerikalılar yaxşı bilirlər ki, Ukrayna strateji əhəmiyyətli metalın ilk beş istehsalçısı sırasında olub. Ona görə də maraq dairəsində həmin metal, həmin resurlar olduğu zərrə qədər də şübhə doğurmur.

Onu da bilirik ki, ABŞ-ın digər strateji sektoru nüvə enerjisidir. Yaxşı bilirik ki, Uran hələ də planetdə əsas çəkindirici, “qorxulu” sayılan nüvə silahlarının xammalıdır. Bu isə öz növbəsində amerikalıların təbirincə desək, “dünya hökmranlığı” deməkdir. Amerikanın yeni administrasiyasının da məhz belə ambisiyalarının olduğu bəllidir və bunun fonunda strategiyanın pərdə arxasında nələrin olduğu görünməyə başlayır. Bəli, Amerikanın özündə də zəngin ehtiyatlar var. Heç də ABŞ kimi bir ölkə resurslardan məhrum olmayıb. Dünyada ən böyük karbohidrogen ehtiyatlarının olduğu coğrafiyadan biri də Amerikadır. Məsələ burasındadır ki, Amerikanın enerji resursları amerikalılara daha baha başa gəlir. Resurslar daha dərində “gizlənir” və müxtəlif süxurların layları altında yerləşir. Onların çıxarılması çətin və ətraf mühit üçün təhlükəli hesab olunur. Ona görə də başqalarının resurslarına göz dikilməsi tamamilə anlaşılandır.

***İnam Hacıyev***

# "Çinlə Azərbaycan çox vacib ünsiyyət formatını formalaşdıra biliblər"



***"Davosda həmişə olduğu kimi Prezident İlham Əliyevə beynəlxalq media tərəfindən münasibət çox həssas, böyük olub". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, Çin şirkətinə verdiyi müsahibədə Prezident İlham Əliyev bir çox məqamlarla bağlı çox vacib açıqlamalar verib: "İlk növbədə o, bildirib ki, Azərbaycan öz yolunu seçmiş məmləkətdir, Milli Prioritetlərinə sadiq olaraq hərəkətinə davam edir.***

Digər tərəfdən Çin-Azərbaycan münasibətləri ilə bağlı Prezident İlham Əliyev bildirib ki, Çin ən qüdrətli böyük dövlət olmaqla bərabər həm də Avrasiya məkanında, dünya birliyində əvəzsiz rol oynayan bir ölkədir. O cümlədən Çinin Azərbaycana olan diqqəti, onun Azərbaycanla bağlı planları həddindən artıq vacib əhəmiyyət kəsb edir. Orta dəhlizin, eləcə də birgə layihələrin yenilənməsində iki ölkə həmahəng hərəkət etməyə israrlıdır.

Bizim iki ölkə olaraq geosiyasi çəkimiz eyni deyil. Çin fövqəl dövlətdir. Azərbaycan nisbətən yığcam, güclü dövlətdir. Buna baxmayaraq bizim bir-birimizə olan münasibətimiz, bacarıqlarımız onu göstərir ki, burada ölkələrin balaca, böyük olması o qədər də əhəmiyyət kəsb etmir. Əksinə əsas məsələ ondan ibarətdir ki, onlar bir dalğaya köklənirlər. Həm də ən vacib sorğuları həmahəng tərzdə qarşılayırlar və onlarla bağlı həll yolları müəyyən edirlər. Bu baxımdan Bakı və Pekin arasında çox vacib harmonik dialoq formalaşıb. O, özünəməxsus tərzdə inkişaf edir. Ən əsas da odur ki, bizim aramızda çox möhkəm, qarşılıqlı etimad var. Digər tərəfdən də biz bir-birimizi ən vacib məsələlərdə tamamlayırıq. Buz ilk növbədə beynəlxalq yükdaşımaları məsələsində özünü əks etdirir. Çünki biz yaxşı xatırlayırıq ki, pandemiya dövründə Azərbaycan və lideri Prezident İlham Əliyev ən azı üç təşəbbüs irəli sürdü ki, onlar hamısı işlək vəziyyətdə oldular. Dünya birliyinə yüngüllük gətirdilər. Avropa İttifaqının aparıcı dövlətləri öz milli sərhədlərini bağladılar, Azərbaycan sərhədlərini açdı və dedi ki, bu ağır vəziyyətdə yükdaşımaları, səfərbər olmaq, vaksin həmrəyliyi və sair hamısı son dərəcə vacibdir. Biz göstərdik ki, bu istiqamətlərin hamısında Azərbaycanın seçdiyi yol ən düzgün yoldur. Digər tərəfdən Azərbaycan böyük problemlərin olduğu halda insanlara, xalqlara yüngüllük gətirir. Ona görə də, Çin Xalq Respublikası da Azərbaycanla bərabər göstərdi ki, biz əməkdaşlığımızı yüksək səviyyəyə çıxarmaqla bağlı dialoq proseslərini inkişaf etdirdik, bir-birimizi anlayırıq. Həm də həmahəng fəaliyyət göstərməklə maneələri dəf edə bilirik. Ona görə də, bu baxımdan Azərbaycanla Çin arasında olan münasibətlər vacib əhəmiyyət kəsb edir".



MÜNASİBƏT

Onun sözlərinə görə, Azərbaycanın tərəfdaş, partnyor seçimində heç bir problem yoxdur: "Yetər ki, biz eyni dəyərlərə, üstün cəhətlərə köklənək. Bu baxımdan da qarşıda duran məsələlərin hamısını həll edək. Prinsip etibarilə Prezident İlham Əliyevin verdiyi müsahibədə əsas məqamlar var. Misal üçün Donald Trampla bağlı dünya birliyində heç də ədalətli yanaşma yoxdur. ABŞ-ın hakimiyyətdə olan qüvvələri D.Trampın baxışlarını qəribçiliyə salırdılar. Bu, düzgün yanaşma deyildi. Ondan beynəlxalq birlik əziyyət çəkdi. Çünki Tramp bir çox məsələlərdə prinsipial mövqe tutaraq göstərir ki, insan cəmiyyəti gərək sağlam mövqedən çıxış etsin, problemlərin həllinə nail ola bilsin. Həm Azərbaycan, həm Çin, həm bizə yaxın dövlətlər çox sağlam mövqe sərgiləyirlər.

Dünya proseslərində gedən dəyişikliklər göstərir ki, bizi qarşıda çox ciddi sınaqlar gözləyir. Buna baxmayaraq biz o dərəcədə dəyişilən şəraitə həssas yanaşma sərgiləyirik. Bu baxımdan da beynəlxalq aləmdə olan əməkdaşlıq imkanları göstərir ki, bir qədər həssas olmaq lazımdır, həm də bir-birini eşitmək vacibdir. Bu baxımdan Çinlə Azərbaycan çox vacib ünsiyyət formatını formalaşdıra biliblər."

***Söylü Ağazadə***

# Vitrinlərdə başqa qiymət, kassada isə başqa qiymət - NƏ ETMƏLİ?



"Vitrində başqa qiymət, kassada isə başqa qiymətlərlə bağlı onu deyə bilərəm ki, bu iki faktor üzrə həyata keçirilir. Marketlərdə piştaxtalara qoyulan məhsullarda inflyasiya o qədər yüksək olur ki, məsələn bu gün gələn hər hansısa partiya malla, bir həftə sonra

## EKSPERT ŞƏRH ETDİ

gələn partiya mal arasında, onun maya dəyəri arasında olan fərqlərə görə yekun qiymət tənzimlənməsi olduğuna görə qiymət artımı müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Asif İbrahimov deyib. Onun sözlərinə görə, marketlərdə olan qiymət dəyişikliyinin digər bir səbəbi də ondan ibarətdir ki, xaricdən gələn məhsullara misal olaraq Belarusiyadan 1 həftə öncə idxal olunan kərə yağı ilə, 1 həftə sonra idxal olunan kərə yağının arasında azda olsa qiymət fərqi olur: "Bu son bir neçə ildə intensiv olaraq, yəni Azərbaycanda inflyasiyanın nəticəsində yaranmış vəziyyətdir. Son bir neçə ildə artıq biz şahidi oluruq ki, Azərbaycan cüt rəqəmli inflyasiyaya gəlib çatıb. Onu da qeyd etmək istəyirəm ki, bir çox hallarda vitrinlərdə olan qiymətləri market işçiləri dəyişməyə vaxt tapmırlar və buna maraqları da olmur. Çünki istehlakçılar buna çox fikir vermirlər. Sadəcə son dövrlərdə artıq bu xroniki hal aldığına görə, insanlar aldıqları malların qiymətlərinə fikr verməyə başlayıblar.

Bəyəndiyimiz, keyfiyyətinə arxalandığımız hansısa bir məhsulu götürüb kassaya yaxınlaşdığımızda görürük ki, qiymət fərqi olur. Amma indi inflyasiya o həddə çatıb ki, bir sıra məsələlər də xroniki hal almağa başlayıb. Digər bir səbəb də ondan ibarətdir ki, marketlərdə qiymət artımı edərək bu haldan sui-istifadə etmək istəyənlər də var. Belə hallarda market sahibləri vətəndaşların düşdüyü bu vəziyyətdən sui-istifadə edirlər və çalışırlar ki, bu məsələyə don geyindirsinlər".

***Ziya Hikmətoğlu***



# Hər yerdə...

**Mətanət Məmmədova**

***Qatarda düz yeddi gənc sayıram, əyləşiblər, başları isə aşagıdır. Qarşılarında neçə-neçə ahıl insan, analarının əlini var gücü ilə sıxmış, ancaq yenə də yerindəcə çalxalanan uşaqlar...***

Küçədəyəm, qulağında qulaqcıqlar, başı aşağı onlarla gənc, qarşılarındakı əliuşaqlı, əliəsalı insanlara çırpılırlar, üzr istəmək yerinə hələ bəzən "görmürsən?" deyə söyləyirlər.

Ticarət mərkəzindəyəm, ana, yanında yeqin ki, qızıdır, başı aşağı, oğlan, yanındakı yeqin ki, dostu, qardaşıdır, başı aşağı. Qız, yanındakı yeqin rəfiqəsidir, başı aşağı. Əslində iki nəfərin bir arada olub birinin telefonla məşğul olması, yaxud kitab, qəzet oxuması qarşısındakına hörmətsizlikdən başqa bir şey deyil.

Yenə xatirələr alır məni ağuşuna, götürür keçmişə. Keçmiş deyəndə bizim gəncliyimizin təsadüf elədiyi 1990-cı illərə. Metroda, marşrut avtobuslarda əyləşməyimizlə qalxmağımız bir olardı, böyüklərə yer verərdik, yaşlı insanların çantalarını daşıyar, yolu keçirərdik, uşaqlılara yardım edərdik. İndi də belə gənclər çoxdur, müşahidə edirik, lakin bütün günü ən azından sağlamlığını fikirləşməyib gözlərini telefondan ayırmayan gənclərimizin sayı daha artıqdır. Hər gün rastlaşdığım bu mənzərələr, artıq vərdiş halını almış bu hallar məni çox düşündürür və narahat edir. Saysız suallar beynimdə bir-birini əvəzləyir: bu alışqanlığa necə son qoyaq? Gəncləri sağlamlıqlarına zərər verən bu vərdişlərdən necə çəkindirək? Onların ətrafdan təcridinə necə göz yumaq?

Düzdür, internet əsrində yaşayırıq. Texniki tərəqqi özünün ən yüksək pilləsindədir. Sosial şəbəkələrlə bir andaca dünyaya çıxmaq olur. Lakin bu o demək deyil ki, biz elə həyatımızı internetə köçürək, ötən zamanımızı gələn zamanımıza qurban verək. İnternet, sosial şəbəkələr o zaman əlverişlidir ki, ondan qədərində istifadə olunsun. İfrat istifadə ancaq həyatımızda yeni-yeni problemlərin yaranmasına yol aça bilər. Elə açır da. Əvvəl sağlamlığımız əldən gedir, sonra yuxarıda sadaladığım hərəkətlərlə mentalitetimizə zərbə endirmiş oluruq, daha sonra isə valideyn-övlad, bacı-qardaş, ər-arvad, qayınana-gəlin münasibətləri məhv olur. Bütün bunlara görə gəlin sosial şəbəkələrdən istifadə üçün günün hansısa saatlarında vaxt ayırıb başımızı yuxarı qaldıraq. Ətrafımızdakılara diqqət göstərib, qayğı bəsləyək.

Bu günün gənci sabahın ata-anası, həyat yoldaşıdır, evlərdə gəlindir. Bu gün ətrafınıza sərgilədiyiniz laqeydqliyi sabah ailələrimizə daşıya bilərsiniz. Qaldırın başınızı, əziz gənclər, cəmiyyətə baxın, tanış olun, yaxşıları əxz edin, pisləri tənqid edib cəmiyyətə yol açmasına, yox, deyin. Qaldırın başınızı, gələcəyimiz, mentalitetimiz naminə,

Müşahidələrimdə gənclərlə yanaşı, müxtəlif yaş qruplarında olan qadın və kişilərin də başı aşağı halı nəzərimdən qaçmadı. Onlara bir sualım var: bu hərəkətlərlə gənclərə örnək olursunuz?

*Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib. Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.*



# "Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır"

Azərbaycan Prezidenti İlham Əliyevin "Vergi Xidməti–25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına müraciətində bildirdiyi kimi, "Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır".

Əlbəttə ki, son 21 il ərzində ölkə iqtisadiyyatı böyük inkişaf yolu keçib. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası ölkəmizdə taleyüklü məsələlərin həllində mühüm rol oynayıb. Azərbaycan Prezidentinin 21 illik ölkəyə rəhbərliyi dövründə bütün sferalarda çevik islahatlar aparılıb, dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, vacib olan neft strategiyası davam etdirilib. Müraciətdə qeyd olunduğu kimi: "Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir".

## HÜQUQİ VƏ İQTİSADİ İNKİŞAF YOLUNDA MÖHKƏM TƏMƏL

Bildiyimiz kimi, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü ilə əlaqədar olaraq 2025-ci il dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir Sənəddir. Müraciətdə qeyd olunduğu kimi, "Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir. Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: "qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur". Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır".






# TƏHLİL

Azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. Dövlət başçımız bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığının durduğunu bildirib: "Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir".

## "ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN VƏ SUVERENLİYİMİZİN TAM BƏRPASI İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İQTİSADİ İNKİŞAFI ÜÇÜN MÖHKƏM TƏMƏL YARADIB"

Dövlət başçısı İlham Əliyev birinci dəfə Azərbaycan Prezidenti seçilərkən beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam və şərtsiz bərpasını öz siyasi proqramının ali məqsədi olaraq bəyan etmişdi. Bu gün bu siyasi proqram artıq reallaşıb. Tarixi əhəmiyyətli Zəfərin əldə olunması həm də ölkəmizin əsas iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsi sayəsində mümkün olub.

Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meylləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir. Bu gün işğaldan azad olunan Şuşa, Zəngilan, Ağdam kimi ərazilərdə genişmiq¬yaslı bərpa-quruculuq işləri görülür və müasir tələblərə uyğun olaraq qurulur. Eyni zamanda, Kəlbəcər kimi ucqar rayonlar da diqqətdədən kənarda qalmayıb. Pilot layihələr kimi Kəlbəcər rayonunda arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərə lazımı şərait yaradılıb. Müharibədən dörd ildən artıq vaxt ötməsinə baxmayaraq, qətiyyətlə deyə bilərik ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Müraciətdə qeyd olunur ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb: "Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir. Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq".

## VERGİ SİSTEMİNİN ÖLKƏMİZİN İNKİŞAFINDA MÜSTƏSNA ROLU

Bu gün ölkəmizdə sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradılıb. Müraciətdə o da qeyd olunur ki, sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır: "Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır. Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar".

Vergi siyasəti iqtisadiyyatın səmərəliliyinə böyük təsir göstərir. Son illərdə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının artması və onların ümumi iqtisadiyyata xüsusi çəkisinin yüksəlməsi diqqəti çəkir. Ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət nəticəsini verir. Göründüyü kimi, ölkəmizdə aparılan islahatlar cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir. Ölkəmizin 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gələrək, biri-birindən əhəmiyyətli uğurlar əldə edir. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir.

**Zümrüd BAYRAMOVA**

# Həyat lövhələrini ustalıqla yaratmış böyük sənətkar




## Dövlət başçısının Sərəncamı ilə Maqsud İbrahimbəyovun 90 illiyi qeyd olunacaq

Azərbaycan milli-mənəvi dəyərləri ilə bütün Avropa, şərq ölkələrini təəccübləndirdiyi bir zamanda dövlət tərəfindən buna diqqət daha da artırılmaqdadır. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, dünyaya töhfələr verən bir abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur. Belə bir xəzinə hər zaman olduğu kimi bu gün də dövlət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl olaraq imzalanan Sərəncamlarda bu ifadə öz təqdiqini bir daha tapır. Cəmiyyətin inkişafına stimul verən mədəniyyətin, incəsənətin inkişafına dövlətimizin himayəsi son illər həyata keçirilən mədəniyyət siyasətində daha parlaq şəkildə öz əksini tapır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafına, klassik və müasir yaradıcı şəxsiyyətlərin yubileylərinin keçirilməsinə, onların yaradıcılıq irsinin bütün dünyada yetərincə təbliğ olunmasına böyük önəm verir. Dövlət başçımızın mədəniyyətimizin aparıcı sahəsi olan mədəniyyətə - ədəbiyyata, bütövlükdə, söz sənətinə yüksək qayğı və məhəbbəti milli-mənəvi dəyərlərimizə olan diqqətin nümunəsidir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim "Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında"

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə dövlət tərəfindən göstərilən diqqətin daha bir ifadəsidir.

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir. Sərəncama əsasən, belə bir sənətkarın - Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.

Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyov 11 may 1935-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Tərcümeyi-halında qeyd oldunduğu kimi, o, orta məktəbi bitirdikdən sonra 1955–1960-cı illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində ali təhsil almış, 1962–1964-cü illərdə Moskvada Ali ssenari kurslarında, 1971–1973-cü illərdə isə Ali rejissor kurslarında oxumuşdur. Əmək fəaliyyətinə 1960-cı ildə Azərbaycan Tikinti Nazirliyinin Ağır Sənaye İnşaatı Trestində mühəndis kimi başlayan Maqsud İbrahimbəyov sonralar burada müxtəlif vəzifələrdə çalışmış, 1964-1971-ci illərdə SSRİ Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsində Azərbaycan üzrə xüsusi müxbir işləmişdir. Sonrakı illərdə o, bədii yaradıcılıqla və ictimai fəaliyyətlə məşğul olmuşdur.

Onun ilk kitabı 1961-ci ildə işıq üzü görüb. Yazıçının kitabları dünyanın bir çox ölkəsində dərc edilib. 36 xarici dilə tərcümə olunub. SSRİ-nin və Azərbaycanın Dərgilərində çap olunub. Maqsud İbrahimbəyovun ən məşhur romanları arasında "Bütün yaxşılıqlara görə ölüm", "Truskaveçə kim gedəcək" , "Ondan yaxşı qardaş yox idi", " Qoy o bizimlə qalsın", "Bayquş gəldi", "Kərgədan buynuzu" və digərlərinin adını çəkmək olar. Onun bir çox əsərləri həm Azərbaycanda, həm də ölkənin hüdularından kənarda müxtəlif kinostudyalarda ekranlaşdırılıb, pyesləri isə 50 teatrda tamaşaya qoyulub.

Nasir, dramaturq, kinossenarist və rejissor kimi çoxcəhətli fəaliyyəti ilə SSRİ miqyasında tanınmışdır. Onun "Mezozoy əhvalatı" pyesi Mədəniyyət Nazirliyinin keçirdiyi ən yaxşı pyeslər müsabiqəsində birinci yeri tutmuşdur. ."Mezozoy əhvalatı", "Bayquş gəlmişdi", "Yay tətili", "Bütün yaxşılıqlar üçün — ölüm!", "Truskavetsə kim gedir?", "Sən nəğməmsən mənim", "Ona görə ki, mən Ayvar Lidakam" və s. ssenariləri əsasında filmlər çəkilmişdir. Əsərlərində ümumbəşəri problemlər kontekstindən çıxış edərək, öz ənənələri ilə güclü olan Şərq insanının həyat tərzini göstərmişdi. O, həmçinin "Bizim Cəbiş müəllim", "Uşaqlığın son gecəsi", "Ən vacib müsahibə" və s. filmlərin ssenari müəllifidir.

"Qəza", "Bir az da sevinc", "Eşitmədiyim mahnı", "Qoy o bizimlə qalsın" və s. adlı kitabları Moskva nəşriyyatlarında kütləvi tirajla buraxılmışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Bayquş gəlmişdi" və "Bütün yaxşılıqlar üçün — ölüm!" əsərlərinə görə ona 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatı verilmişdir.

Yaradıcılığı yüksək qiymətləndirilmiş və bir sıra ədəbi-ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. Belə ki, o, Azərbaycan Respublikasının Xalq yazıçısı (1998), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1976), 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Respublikası Sülh Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin millət vəkili, Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri, ABŞ-ın Luiziana ştatının Fəxri Senatoru, ABŞ-nin Minneapolis şəhərinin Fəxri vətəndaşı, Azərbaycan Respublikası PEN klubunun prezidenti olmuş və "Şöhrət" (1995) və "İstiqlal" (2005), "Şərəf" (2015) ordenlərinə layiq görülmüşdür.

Maqsud İbrahimbəyov rus dilində yazsa da, hər bir əsəri, bütün yaradıcılığı doğma torpağa, doğma mənbələrə, doğma köklərə böyük məhəbbətlə aşılanıb. Zaman keçdikcə insanlar böyük yazıçı Maqsud İbrahimbəyovun Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafında xidmətlərini daha dərindən dərk edir.

Maqsud İbrahimbəyov 22 mart 2016-cı ildə Bakı şəhərində vəfat etmişdir. Görkəmli yazıçı və parlaq şəxsiyyət Maqsud İbrahimbəyov 20-ci əsr Azərbaycan ədəbiyyatının simvollarından birinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sağlam ailə üçün psixoloji müayinənin rolu nədir?

"Sağlam ailə üçün psixoloji müayinənin rolu çox vacibdir. Çünki ailədaxili münasibətlərin keyfiyyəti birbaşa fərdlərin psixoloji sağlamlığından asılıdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Zeynəb Eyyubova sözlərinə belə davam edib: "Ailə üzvlərinin emosional vəziyyəti, ünsiyyət bacarıqları və qarşılıqlı münasibətləri sağlam ailə mühitinin formalaşmasında əsas rol oynayır. Bu baxımdan, psixoloji müayinə ailənin daha sağlam və harmonik münasibət qurmasına kömək edə bilər.

Psixoloji müayinənin bir sıra məqsədləri var:

**1.Ailə üzvlərinin psixoloji vəziyyətini qiymətləndirmək**

Psixoloji müayinə zamanı ailə üzvlərinin fərdi psixoloji vəziyyəti araşdırılır. Stres, depressiya, narahatlıq kimi problemlərin olub-olmadığı müəyyən edilir. Çünki bir fərdin psixoloji durumu bütün ailəyə təsir edə bilər.

**2. Ailə münasibətlərini təhlil etmək**

Bəzən ailə üzvləri bir-biriləri ilə düzgün ünsiyyət qura bilmir və anlaşılmazlıqlar yaranır. Psixoloji müayinə zamanı münasibətlərin hansı çərçivədə formalaşdığı, konfliktlərin hansı səbəblərdən qaynaqlandığı və bu problemlərin necə həll edilə biləcəyi araşdırılır.

**3. Problemlərin erkən aşkarlanması**





PSİXOLOQ DANIŞDI

Ailədə psixoloji problemlər çox vaxt uzun müddət gizli qala bilər və zamanla daha böyük problemlərə səbəb ola bilər. Məsələn, valideynlər arasında gərginlik və ya uşağın emosional problemləri erkən mərhələdə aşkar olunarsa, bu problemlərin dərinləşməsinin qarşısı alına bilər.

**4. Sağlam ünsiyyətin formalaşdırılması**

Psixoloji müayinə zamanı ailə üzvlərinə daha səmərəli ünsiyyət bacarıqları öyrədilir. Bu, həm valideynlər arasında, həm də valideyn-övlad münasibətlərində qarşılıqlı anlaşmanı gücləndirir.

**5. Uşaqların psixoloji sağlamlığının qorunması**

Ailədəki psixoloji atmosfer uşaqların emosional inkişafına böyük təsir göstərir. Uşaqlar ailədə gördükləri münasibətləri gələcəkdə öz həyatlarında təkrarlayırlar. Ona görə də, psixoloji müayinə uşaqların sağlam psixoloji inkişafı üçün mühüm rol oynayır.

• Ailədə tez-tez mübahisələr və konfliktlər baş verirsə,

• Valideynlər arasında münasibətlərdə soyuqluq yaranıbsa,

• Uşaqlarda davranış dəyişiklikləri və emosional problemlər müşahidə olunursa,

• Valideynlər övlad tərbiyəsində çətinlik çəkirsə,

• Ailə üzvləri stress və psixoloji gərginlik hiss edirsə,

• Boşanma, ailədaxili böhran və ya ciddi dəyişikliklər zamanı. - Mütləq psixoloq müayinəsi lazımdır.

Ümumiyyətlə sağlam ailə münasibətlərinin qurulması və qorunması üçün psixoloji müayinə vacibdir. Bu proses ailə üzvlərinin bir-birini daha yaxşı başa düşməsinə, sağlam ünsiyyət qurmasına və problemləri daha rahat həll etməsinə kömək edir. Ailənin psixoloji sağlamlığı qorunduqda, həm fərdlər, həm də ümumilikdə cəmiyyət daha sağlam olur. Bu səbəbdən, ailə psixoloquna müraciət etmək, mütəmadi psixoloji dəstək almaq və problemləri vaxtında həll etmək sağlam və xoşbəxt ailə həyatı üçün önəmli addımlardan biridir".

***Ayşən Vəli***






# Milli Şura və AXCP USAİD-in əlində alət olub

***Məhkəmələr tərəfindən verilən qərarlara, cəmiyyətdə aparılan müzakirələrə, mətbuatda müvafiq sənədlərə əsasən dərc olunan məqalələrə görə təsdiq olunur ki, Azərbaycanın dağıdıcı müxalifəti müxtəlif xarici fondlar və müəyyən qaranlıq dairələrlə geniş əlaqələrə malikdirlər. Məhz bu cür əlaqələrin nəticəsi olaraq özlərinin maddi durumlarını, yaşayışlarını təmin edirlər.***






USAİD-in fəaliyyətinin dayandırılması barədə ABŞ prezidenti D.Trampın və onun komandası tərəfindən açıqlanan məlumatlar Əli Kərimli, Cəmil Həsənli və onların ətrafında olan trollarının qrant əldə etmək imkanlarının müəyyən hissinin əllərindən alınmasına xidmət etdiyini demək olar. Dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAİD guya ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsilə, demokratiya sahələrinə dəstəklə məşğul olsa da, əslində, onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu rıçaqlardan təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri və konstitusion quruluşu devirməyə yönəlib. 2024-cü maliyyə ilində USAİD layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAİD xətti ilə 335 milyard dollar xərclənib. USAİD-in dünya üzrə maliyyələşdirdiyi nüfuzlu medialar- The New York Times" (2024-cü ildə 3,1 mln.dollar ayrılıb), "Politico" (8 mln. dollar), "Associated Press" (19 mln.dollar), BBC (2,6 mln.funt), Reuters (9 mln.dollar), Frans-Press (447 min dollar. Ümumilikdə 700-dən artıq media orqanı, 300-ə yaxın media sahəsində çalışan QHT və 6 mindən çox jurnalist maliyyələşdirilib. 2025-ci il fevralın 6-dan ABŞ hökuməti bu təşkilat vasitəsilə "The New York Times", "Politico" və "Associated Press"in maliyyələşdirilməsini dayandırıb. Yalnız Ukraynada medianın 90 faizi USAİD tərəfindən maliyyələşdirilib. 2024-cü ildə USAİD Ukraynadakı proqramlarına 6 milyard dollardan artıq vəsait xərcləyib. Sübuta yetirilən digər fakt ondan ibarətdir ki, son vaxtlar Gürcüstanda hakimiyyətə qarşı küçələrdə həyata keçirilən etiraz aksiyalarını USAİD maliyyələşdirib. Yalnız iki ay ərzində USAİD tərəfindən Gürcüstanın siyasiləşmiş QHT-lərinə 43 milyon dollar ödənilib. Bu kimi hallar, maliyyə vəsaitlərinin sağa-sola paylanmasını heç cür həzm edə bimeyən ABŞ-ın yeni hakimiyyəti USAİD-in bağlanmasına qərar verib. D. Tramp USAİD-i "görünməmiş miqyasda korrupsiyada" ittiham edib, İ.Mask isə USAİD-in "cinayətkar təşkilat" adlandırıb və bildirib ki, bu qurumun "ölməyinin vaxtıdır".

### Cəmil Həsənli: "Tramp USAİD-in bağlanmasına qərar verməklə demokratiyaya və insan azadlıqlarına zərbə vurdu"

USAİD-in bağlanması qərarının verilməsindən təkcə təşkilatın rəhbərliyi narahat olmayıb, eyni zamanda Əli Kərimli və Cəmil Həsənli kimi onlardan qidalanan ünsürlər də əndişələnməyə başlayıblar. Bu baxımdan, qərarın elan olunmasından dərhal sonra Ə.Kərimli və C.Həsənli müxtəlif internet TV-lər vasitəsi ilə Tramp hakimiyyətini sərt şəkildə tənqid edirlər. Hətta Milli Şuranın sədri Cəmil Həsənli "Tramp USAİD-in bağlanmasına qərar verməklə demokratiyaya və insan azadlıqlarına zərbə vurdu", - deyə bildirib. USAİD-in Azərbaycanda da fəaliyyətinin dayandırılması barədə hökumətin verdiyi qərar dağıdıcı müxalifətin ümidlərini tamamilə əlindən almış olur. Nəzərə almaq lazımdır ki, bir qədər əvvəl Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycanda fəaliyyətinin dayandırılmasına dair ABŞ-a bildiriş göndərildiyini bildirib: "USAİD-in ölkədə fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı və fəaliyyətini dayandırması barədə bildiriş ABŞ tərəfinə rəsmən göndərilib".

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da mətbuata açıqlamasında USAİD-in fəaliyyətinin dayandırılmasının vaxtının yetişdiyini söyləyib: "Çünki biz danışıqlar zamanı gördük ki, ABŞ Azərbaycanın maraqlarını nəzərə almır və diktə ilə öz maraqlarından çıxış etməyə çalışır. USAİD-in Azərbaycanda mövcudluğunun və təmsilçiliyinin davam etdirilməsinə ehtiyac yoxdur və fəaliyyətinin tam dayandırılmasının vaxtı yetişib".

### Uzun illər USAİD Azərbaycanda dağıdıcı müxalifətə milyonlarla dollar yardımlar göstərib

Söz yox ki, USAİD-in Azərbaycanda fəaliyyətinin dayandırılması barədə verilən qərar təsadüfi və gözlənilməz qərar hesab edilə bilməz. Uzun müddət USAİD humanitar fəaliyyət adı altında dağıdıcı müxalif ünsürlərə, eləcə də müstəqil media adı altında sifarişli fəaliyyət yolu tutan sayt və qəzetlər, siyasiləşmiş QHT-lərə milyonlarla dollar yardımlar göstərib. Azərbaycanda istintaq orqanları tərəfindən aparılan araşdırmalar əsasında üzə çıxan faktlara görə Meydan TV, Abzazmedia, Toplum TV və digər saytlar, QHT-lər USAİD tərəfindən maliyyə yardımları alıblar. Maliyyə dəstəyinin göstərilməsi ilə əsas hədəf onlar vasitəsi ilə ölkənin daxili aləminə təsir göstərmək olub. Pul ayırdıqları medialar "yeganə müstəqil media" kimi təqdim etmək və qanunsuz fəaliyyətə qarşı dövlət sanksiyalarını "söz azadlığı və müstəqil mətbuatın boğulması" kimi qələmə vermək niyyətində olub. Araşdırmalar əsasında ilginc məlumatlar aşkarlanıb. Məlum olub ki, USAİD Azərbaycanda çirkin niyyətini geniş formada qurmağa çalışıb. Hədəfləri əsasən ölkə rəhbərliyinin hədəfə alınması, Ermənistanın işğalı və Qarabağdakı rejimin mövcudluğuna "humanitar" don geyindirilməsi (bu, xüsusilə QHT-lərin Laçın yolundakı aksiyasını "humanitar fəlakət" kimi təqdim edilməsində özünü göstərmişdi), işğalçı rejimin legitimləşdirilməsinə cəhd (S.Pauerin Vardanyanla münasibətləri və korrupsiya sxemləri, Vardanyanın USAİD tərəfindən media, o cümlədən "BBC" tərəfindən təbliği), Ermənistanın Rusiyaya qarşı sanksiyaları pozması və reeksport faktlarının gizlədilməsi, əvəzində Azərbaycanın "Rusiya qazını gizli yolla Avropaya çıxaran ölkə" kimi təqdim edilməsi, Azərbaycanın etnik təmizləmə aparan ölkə kimi təqdim olunması, Azərbaycanın "diktarura və avtoritar rejim" kimi, Ermənistanın isə "demokratik ölkə" kimi təqdim olunması, ölkədə keçirilən azad, demokratik seçkilərin gözdən salınması və "saxtalaşdırılma"ya dair əsassız ittihamlar, sosial problemlərin siyasiləşdirilməsi və vətəndaş qarşıdurmasının yaradılması, iqtidar-xalq birliyinin sarsıdılması, Azərbaycanın müstəqil siyasətinin yerli və xarici mediada "digər dövlətlərdən asılılıq" kimi təqdim olunması, Azərbaycandakı bütün beynəlxalq tədbirlərin gözdən salınması (Eurovizion, Formula-1, COP29 və s.), ölkədə LGBT, No-War-çılar və digər qrupların təşkilatlandırılması və maliyyələşdirilməsi və digər çirkin məqsəd və hədəflər olub.

### USAİD-in fəaliyyətinin dayandırılmasından dağıdıcı müxalifət narahat olub

USAİD məkrli planların reallaşdırmaq üçün ələbaxım funksiyasını yerinə yetirən, daim xaricdən maddi və mənəvi dəstək axtarışında olan saytlardan, siyasiləşmiş QHT-lərdən və Milli Şura, AXCP kimi alətlərdən istifadə etməkdən çəkinməyiblər. İndi isə axan maliyyə vəsaitləri Trampın qərarı ilə kəsilir. Bu isə yuxarıda qeyd etdiyim kimi, dağıdıcı müxalifətin əsas iştirakçılarını ciddi narahat edib. Trampın qərarına açıq şəkildə narazılıqlarını bildirmələri də heç də sıradan bir narazılıq və narahatlıq sayıla bilməz. Onlar siyasi fəaliyyətləri dövründə mütəmadi şəkildə digər maliyyə şəbəkələrindən olduğu kimi USAİD-dən də böyük məbləğdə maliyyə vəsaitləri alıblar. İndi isə o maliyyə yardımları kəsilir. Əminliklə qeyd etmək olar ki, əgər geniş istintaq araşdırmaları aparılsa, Ə.Kərimlinin, C.Həsənlinin və onların ətrafında olan trolların, eləcə də bəzi saytların və siyasiləşmiş QHT-lərin USAİD-lə yeni iyrənc əlaqələrini üzə çıxarırlar.

**İLHAM ƏLİYEV**

# Hər il 300 min uşaq onun qurbanı olur

***Uşaqlar və xəstəlik... Həm alışdığımız, həm də alışmadığımız vəziyyətdir. Həm eynilik, həm də təzaddır, deyilmi? Uşaqlar böyümə ərəfəsində xəstələnirlər, sağalırlar, yenə xəstələnirlər, yenə sağalırlar. Amma bu xəstəliklər zökəm, soyuqdəymə, lap qızılca, suçiçəyi olarsa alışılan vəziyyətdir. Zaman bizi istəmədiyimiz, adı gələncə bədənimizin ürpərdiyi bir xəstəliyə də alışdırdı. Xüsusilə də saf, tərtəmiz bədənləri amansız xəstəliyə yoluxan uşaqların bu xəstəlikdən əziyyət çəkməsi çox dəhşətlidir. Dünyada hər il təxminən 300 min uşağa xərçəng diaqnozu qoyulur və 80 min uşaq xərçəng səbəbindən ölür. Elə öz ölkəmizdə də hər il orta hesabla 170-200 uşağa xərçəng diaqnozu qoyulur.***

### Nədir xərçəng?

Xərçəng, bədənin hər hansı bir yerində hüceyrələrin nəzarətsiz və sürətlə çoxalmasıdır. Yetkin insandan fərqli olaraq, embrion tipli xərçənglərə uşaqlarda daha çox rast gəlinir. Uşaq xərçəngi diaqnozu qoyulmuş halların təxminən 5%-də irsi səbəblər göstərilə bilər. Bu irsi xəstəliklərə Daun sindromu, neyrofibromatoz, vərəmli skleroz, xromosom qırılma sindromları, hemihipertrofiya daxildir. Ancaq uşaq dövrünün xərçənglərinin əksəriyyətinin səbəbini müəyyən etmək mümkün deyil. Buna görə də uşaq xərçəngi üçün skrininq proqramı yoxdur.

Qan xərçəngi olaraq tanınan leykemiya uşaqlıqda ən çox rast gəlinən qan xərçəngidir. Xərçənglərin 70%-i bərk şişlər, o cümlədən beyin şişləri, limfa düyünləri xərçəngləri, neyroblastoma, yəni böyrəküstü vəzinin şişi, Wilms şişi, yəni böyrək şişi, hepatoblastoma, yəni qaraciyər şişi, osteosarkoma yəni sümük şişi, Ewing sarkoması, yəni əzələ şişi, rabdomiyosarkoma, yəni yumşaq toxuma şişi, retinoblastoma isə göz şişi kimi müəyyən edilir. Uşaq dövrünün xərçəngi hər yaşda baş qaldıra bilsə də, embrion xərçəngi xüsusilə uşaqların ilk beş yaşında daha çox rast gəlinir.

Uşaqlıq çağı xərçənglərində xərçəngin alt tipinə görə dərman müalicəsi, yəni kimyaterapiya, şüa terapiyası, yəni radioterapiya, cərrahi müalicələr, kök hüceyrə transplantasiyası və bunların müxtəlif kombinasiyalarından istifadə edilir. Son illərdə dünyada, erkən diaqnoz, habelə diaqnostika-müalicə və dəstəkləyici müalicələrdə əldə edilmiş irəliləyişlərlə, bərk şişlərdə sağalma nisbətləri 70%-ə qədər çata bilib. Bu uğurlu nəticələrə nail olmaq üçün vacib addımlardan biri də uşaqlıq xərçəngləri haqqında məlumatlılığın artırılması yolu ilə erkən diaqnozun təmin edilməsidir.

### Necə anlamalı?



Səbəbsiz arıqlamaq, sümük ağrısı, gəzinti zamanı tez yorulmaq, halsızlıq, zəiflik, yorğunluq, anemiya, tez-tez baş verən infeksiyalı xəstəliklər, sağalmayan yaralar, yüngül zədə alan zaman bədənin tez göyərməsi, qarın şişməsi, bədənin hər hansı bir yerində hiss edilən şişlik xərçəngin əlaməti ola bilər. Boyun, qoltuqaltı və qasıq nahiyəsində əl ilə hiss olunan şişkinlik, xüsusilə səhər saatlarında qusma ilə müşayiət olunan şiddətli baş ağrısı, dərslərə marağın və diqqətin azalması, yerişində dəyişiklik, gözlərdə qoşa görmə, balans və fokuslanmada pozuqluq da xərçəng xəstəliyinin xəbərçisi ola bilər.

Doğrudur, bu sadalananlar digər xəstəliklərin də əlaməti ola bilər. Ancaq bu simptomlar varsa, bir həkim tərəfindən müayinə olunması və xərçəng xəstəliyinin olub-olmaması dəqiqliklə yoxlanmalıdır. Xərçəng yoluxucu xəstəlik deyil. Ancaq həm xəstəliyin özü, həm də tətbiq edilən müalicələr immunitet sisteminə təsir etdiyi üçün xəstələr infeksiyalara daha çox meylli olurlar.

### Doğru zamanda, doğru yerdə və düzgün müalicə

Uşaqlıq dövrünün xərçəngindən qorunmağın qəti yolu yoxdur. Ancaq uşaqlarımızı xərçəngdən sığortalamaq üçün də yollar var. Natural qidalanma, qablaşdırılmış hazır qidaların, fast-foodların istehlakını azaltmaq, infeksiyalardan qorunmaq, immunitet sistemini gücləndirmək, kimyəvi kanserogenlərdən uzaq olmaq, radiasiyadan qorunmaq, günəş işığına həddindən artıq məruz qalmamaq, günəşdən qoruyucu vasitələrdən istifadə etmək kimi tədbirlər görülə bilər. Bütün uşaqların mütəmadi olaraq tibbi müayinədən keçməsi vacibdir. Uşaqlıq çağında aşkarlanan xərçənglər bu gün yüksək müalicə uğuru olan xəstəliklərdir. Erkən diaqnozla bu uğur daha da artır.

Ümumiyyətlə, xərçəngli uşaqların müalicəsində hər gün yeni bir ümid işığı yanır. Erkən diaqnozun vacib olduğu xərçəng xəstəliyində hər xəstəlikdə olduğu kimi müalicənin uğurla nəticələnmə nisbətini artırmaq üçün vaxtında müdaxilə vacibdir. Son 50 ildə uşaqlıq xərçənginin müalicəsində dünyada sözün yaxşı mənasında inqilab oldu. 1960-cı ilə qədər 20%-dən aşağı olan sağalma nisbəti indi 85%-ə çatıb.

Lakin bu uğuru əldə etmək üçün xəstələrin "doğru zamanda, doğru yerdə və düzgün müalicə"yə əllərinin çatması şərtdir. Qeyri-adekvat şərait, maddi imkanlar və zəif səhiyyə sistemi olan ölkələrdə bu xəstəlik hələ də təhlükəli olmaqda davam edir. Əslində, bugünkü tibbi texnologiya ilə uşaqlıq dövrü xərçənglərinin 85%-ə qədəri müalicə effekti versə də, dünya üzrə orta göstərici 50% olaraq qalır. Qərbi Avropa və Şimali Amerikada 80% həddi aşıldığı halda, hələ də müalicənin müsbət nəticələnməsini 10-20% təşkil edən olduğu ölkələr var. Doğru yerdə düzgün müalicə ala bilən xəstələr üçün bu rəqəm daha da yüksələ bilər.

### Sığorta zərfinə daxil edilməlidir

Azərbaycanda 2012-ci ildə Milli Onkologiya Mərkəzinin nəzdində regionda birinci olan Uşaq Onkoloji Klinikası açılıb. Uşaq Onkoloji Mərkəzində kompleks müalicənin bütün növləri icra edilir-kimyəvi terapiya, şüa terapiyası, cərrahi müalicə, immunoterapiya və s. Korpusda uşaq cərrahiyyə, uşaq kimyaterapiya, uşaq şüa terapiya və uşaq reanimasiya və anesteziologiya şöbələri fəaliyyət göstərir.

Məlumat üçün qeyd edək ki, ölkəmizdə "Mülkiyyət formasından asılı olmayaraq, tibb müəssisələrində onkoloji xəstələrin qeydiyyatı və uçotu Qaydası" nın təsdiq edilməsi haqqında və "Onkoloji xəstələrə göstərilməli olan tibbi yardımın həcmi vəkeyfiyyət standartları"nın təsdiq edilməsi haqqında qanunlaq qəbul edilib. Lakin onkoloji xəstəliyin müalicəsi olduqca böyük rəqəmlər tələb edir. Transplantasiya, radio və kimya terapiyalar üçün tələb olunan vəsait bir çox ailə üçün əlçatan deyil. Bu səbəbdən də onkoloji xəstəliklərin sığorta paketinə daxil edilməsi şərtdir.

Ölkəmizdə onkoloji xəstəliklərin müalicəsi tibbi sığorta zərfinə daxil edilməyib. Lakin bir neçə ay öncə icbari tibbi sığorta zərfinə orqanizmdə xərçəngə çevrilmə riski yüksək olan atipik hüceyrə dəyişiklikləri nəticəsində yaranan şişönü xəstəliklərin erkən diaqnostikası da əlavə edildi. Proqnozlara görə yaxın gələcəkdə bütün xərcçəng növləri olmasa da, bəzi növlərin müalicəsi xidmətlər zərfi daxilində həyata keçiriləcək. Təmənnamız uşaq yaşda xərçənglə mübarizə aparan böyük qəhrəmanların xəstəliyinin dövlət hesabına müalicə edilməsidir.

*Lalə Mehralı*

# Xıdır Nəbi bayramı haqqında nə bilirik?

***"Xıdır Nəbi" bayramı eyni zamanda "Xıdır İlyas" adı ilə də tanınır. Bir sıra alimlər bu bayramı yazla əlaqələndirərək "İlyas" adlandırılıb. Hətta bir çox alimlərdə bu fikirlə razılaşır, lakin bu bayram yalnız "Xıdır İlyas" deyil, həmçinin "Xıdır Nəbi", "Xıdır Tapdıq" kimi adlarla mövcuddur. "Xıdır Nəbi" bayramı fevral ayında, "kiçik çilə" adlandırılan bir dövrün ən kəskin soyuq günündə xalqımızın arasında qeyd olunur. Qış ayı ümumilikdə "böyük cilə", "kiçik cilə", "boz ayı" mərhələlərinə bölünür.***

Təbii ki də bu təqvim rəsmi deyil, çünki bu dövrlər daim eyni günə düşmür. Hər il fərqli-fərqli günlərə düşə bilir. Hesablamalara görə, "kiçik çilə" adlandırılan mərhələ fevralın 1 yaxud 2- nə təsadüf edir. Bayram isə "kiçik çilə"-nin girməsindən 10 gün sonra, yəni mərhələnin orta dövrünə təsadüf edir. Bu dövr çox soyuq, şaxtalı keçdiyindən insanlar "Xıdır"-dan hərarət diləyir. Əslində "Xıdır" xalqı xilasetmə missiyasını üzərinə götürmüş mifoloji obrazdır. Bu missiya soyuqdan, şaxtadan qorunmanı, isti günlərin arzulanmasını əhatə edir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu Mərasim şöbəsinin aparıcı elmi işçisi f.ü.f. dok, dosent Ataş Əhmədli SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, insanlar həmin dövrdə qorğa qovururlar: "Yəni dənli bitki olan buğdanı sac vasitəsi ilə qovururlar. Hazırda buna kənd yerlərində təsadüf olunur. Sacın iç tərəfi olan oval hissəsində dənli bitkilərə aid edilən şabalıd, buğda və s. kimi bitkilər qovrularkən, təpəcik adlanan üst hissəsində yuxa yayırlar, qutab bişirirlər. Bununla yanaşı həmin dövrdə qovrulan qorğadan qovut hazırlanır. Qədim dövrdə adətə görə nənələrimiz, analarımız həmin qovrulan qorğanı qəmbər, yəni çay daşı ilə tabaklarda əzirdilər. Yəni bu prosesdən sonra qovur hazırlanırdı. Qovut isə əzilmiş olduğu zaman un şəklini alır. Həmçinin



AYDINLIQ GƏTİRİLDİ

qovuta müxtəlif təamlarda əlavə olunurdu. Burada əsas məsələ bunun "Xıdır"-ın şərəfinə hazırlanması idi. İnsanların düşüncəsinə görə, hazırladıqları təami gecə yatanda çölə qoyduqları zaman, boz atlı "Xıdır" gəlib atının ayağının nalı ilə qabın içinə toxunub iz qoyarsa, onların arzu, istəyi həyata keçər. Həmçinin qış ayı insanlar üçün al-əlvan rənglər yox, əsasən tünd rənglər təsəvvür edilir. Həmin "Xıdır"-ın atının "boz rəngdə" təsəvvür olunması buna işarədir".

Ataş Əhmədli bildirdi ki, insanlar "Xıdır"-ı kasıblıqdan, kəsadlıqdan, soyuq və şaxtalı günlərdən xilas olmaq üçün arzulayırlar: "Bu bayram yazın xəbərçisi olduğundan, insanlar yığdığı azuqələri bu vaxta qədər çatdırmağa çalışırlar. Ona görə də insanlar artıq o zamanda noxud, lobya, buğda və s. kimi dənli bitkilərlə təamlar hazırlayırdılar. Hazırda bu bayram Naxçıvanda qeyd olunur. Bizdə günəşin gəlişi yaz fəslinin bəlgəsi kimi qəbul olunur. Bu bayramı günəşin şimal yarım kürəsinə daxil olduğu andan qeyd edirik. Hətta dəqiq tarixi 20 mart 13:01:25 saatlarında gecə və gündüzün bərabərləşməsi ilə şimal yarımkürəsində olan dünya ölkələri yaz fəslini qarşılayır. Həmin tarixdə xalqımız "Novruz" bayramını" qeyd edir. İstər çərşənbələr, istər "Novruz" bayramı, yaxud "Xıdır Nəbi" bayramı yazın gəlişini təmsil edir. Bu da təbiətin oyanması, ətraf aləmin yaşıllığa qərq olması ilə müşayiət olunur ".

*Xeyrənsə Piriyeva*









# "USAID qanunsuz fəaliyyətini uzun illər gizlədib"

***"USAID qanunsuz fəaliyyətini humanitar yardım adı altında gizlədərək, uzun illər ərzində destruktiv addımları ilə öz nizamnaməsindən kənara çıxıb. Buna görə də təşkilat ölkələrin daxili işlərinə dolayı yolla müdaxilə etməsi, həmçinin ölkələrdə iğtişaşlar yaratmaq və hökumətləri sarsıtmaq üçün gizli şəkildə fəaliyyətləri ilə tanınır. Bu da açıq şəkildə beynəlxalq hüquqa və dövlətlərarası münasibətlərə zidd davranış kimi xarakterizə olunur". Bu sözləri SİA-ya açıqlamasında siyasi-ekspert Elmir Səftərov deyib.***

Onun sözlərinə görə, ABŞ-ın sabiq prezidenti Cozef Baydenin dövründə ermənipərəst Samanta Payerin rəhbərliyi ilə anti-Azərbaycan yanaşması ilə fəallaşan USAID Ermənistana beş illik yardım paketini iki dəfədən çox artırması və digər layihələri ilə ölkəmizdəki nüfuzunu ciddi şəkildə zədələmişdi: "Nikol Paşinyan Rusiyadan uzaqlaşıb, ABŞ və Avropa İttifaqı ilə əlaqələri gücləndirməyə çalışdığı üçün USAID Ermənistandakı proqramlara dəstəyi kəskin şəkildə artırmışdı. 2023-cü il antiterror tədbirlərindən sonra əməkdaşlığı daha da artıran tərəflər, Samanta Pauerin səfərləri fonunda UASID İrəvan ciddi maliyyə və siyasi dəstək verirdi. Bu da təşkilata qarşı ölkəmizdə ictimai qəzəbi artırdı və fəaliyyətinin dayandırılmasına ciddi zərurətlər yaratdı. Bütün bunlar isə regiondakı siyasi ab-havaya mənfi təsir edib, Azərbaycan-Ermənistan sülh müzakirələrinə zərbə vurub.

Ölkəmizin USAID-dən əsaslı narazılığı ABŞ-ın yeni prezidenti seçilən Donald Tramp və komandası tərəfindən də oxşar reaksiya ilə qarşılandı. Nəticədə ABŞ-ın dünyadakı imicini ciddi şəkildə zədələyən "humanitar" agentliyin fəaliyyəti sual altına düşdü. Çünki USAID uzun müddət xarici yardım proqramları ilə avtoritar rejimlərə dəstək verərək dövlətlərə düşmən olan qrupları maliyyələşdirib, terror qruplaşmalarına və LGBT-lərə verdiyi dəstəklə öz prinsiplərindən sui-istifadə edib. Təbii ki, agentliyin bu cür yanaşması regionumuzdan da yan keçməyib. Belə ki, USAID Rusiyanın böyük təsirə malik olduğu Gürcüstan və Ermənistanda müxalifətyönümlü medianı, QHT-ləri maliyyələşdirərək inqilablarla ABŞ-ın maraqlarını təmin etməyə çalışıb".

***Ziya Hikmətoğlu***

# "Onların beyin inkişafı hələ tam formalaşmayıb"



PSİXOLOQ İZAH ETDİ

***"Müasir informasiya dövründə televiziya və sosial media insan həyatının ayrılmaz hissəsinə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında Psixoloq Psixoterapevt Orxan Şəfizadə deyib. O bildirib ki, xüsusilə televiziya kanallarında qətl hadisələrinin, ailə faciələrinin geniş şəkildə işıqlandırılması cəmiyyət üçün ciddi psixoloji və sosial risklər daşıyır: "Bu yazıda belə kontentin psixoloji təsirləri, insan davranışına mümkün neqativ nəticələri və cəmiyyətə uzunmüddətli təsiri barədə geniş təhlil aparacağıq.***





**1.** Şiddətin Normalizasiyası və Empatiyanın Zəifləməsi

Televiziyada cinayət hadisələrinin və ailədaxili zorakılığın tez-tez göstərilməsi insanlarda şiddətə qarşı hissiyatın zəifləməsinə gətirib çıxara bilər. Zamanla belə görüntülər insanların emosional reaksiya vermə qabiliyyətini azalda, hətta bu cür hadisələri "adi" və "qaçılmaz" qəbul etmələrinə səbəb ola bilər. Xüsusilə uşaqlar və yeniyetmələr üçün bu, təhlükəlidir. Çünki onların beyin inkişafı hələ tam formalaşmayıb və gördükləri zorakılıq səhnələrini real həyat modeli kimi qəbul edə bilərlər.

**2.** Modelləşdirmə və Təqlid Davranışı.

Psixologiyada "modellenmə" (social learning theory - Bandura) anlayışı mövcuddur. İnsanlar xüsusilə gənc yaşlarında ətraf mühitdən öyrənirlər. Televiziyada tez-tez zorakılıq görmək, onu çıxış yolu kimi qəbul etməyə səbəb ola bilər. Məsələn, qətl hadisələri haqqında təfərrüatlı məlumatlar bəzi psixoloji problemləri olan şəxsləri eyni davranışa yönləndirə bilər. Bu, kriminal psixologiyada "copycat effect" kimi tanınır.




**3.** Qorxu Mədəniyyətinin Yaranması və Kütləvi Narahatlıq

Mediada tez-tez qətl hadisələrinin, ailə faciələrinin nümayiş etdirilməsi insanlarda dünyaya qarşı pessimist və qorxulu baxış formalaşdıra bilər. Xüsusilə yaşlı insanlar və uşaqlar bu cür informasiyalardan təsirlənərək daim təhlükə hiss edə bilər, kənar insanlara qarşı inamsızlıq yaranar. Uzunmüddətli perspektivdə isə bu, cəmiyyətdə sosial izolyasiyaya və aqressiyanın artmasına səbəb ola bilər.

**4.** Şəxsi Həyata və Psixoloji Sağlamlığa Zərər

Ailə faciələrinin media vasitəsilə yayımlanması yalnız cəmiyyət üçün deyil, hadisə iştirakçıları üçün də ağır psixoloji nəticələr yaradır. Valideynini itirən bir uşağın ailə dramı televiziyada yayımlananda, bu, onun psixoloji travmasını daha da dərinləşdirir. Hadisəni yaşayan insanlar üçün bu, emosional yükü artıraraq, depressiya və travma sonrası stress pozuntusuna (PTSD) gətirib çıxara bilər.

**5.** Mediada Məsuliyyət və Etik Dəyərlər

Burada əsas sual ortaya çıxır: jurnalistlər və televiziya kanalları nə dərəcədə məsuliyyət daşıyırlar? Medianın məqsədi cəmiyyəti maarifləndirmək və obyektiv məlumat verməkdir. Ancaq informasiya etik çərçivədə verilməlidir. Cinayət hadisələrinin şoulaşdırılması, sensasiya naminə faciələrin detallarının açıq-aşkar təqdim edilməsi yalnız mənfi nəticələrə səbəb olur.

**Nəticə və Tövsiyələr**

Televiziyada qətl hadisələrinin və ailə faciələrinin geniş şəkildə işıqlandırılması cəmiyyət üçün ciddi psixoloji təhlükələr yaradır. Bunun qarşısını almaq üçün:

* Media zorakılıq mövzularını təqdim edərkən etik normalara riayət etməlidir.

* Cinayət hadisələri şoulaşdırılmamalı, sensasiya naminə detallar açıq-aşkar göstərilməməlidir.

* Zorakılıq hadisələri ilə bağlı maarifləndirici proqramlar hazırlanmalı, əhalinin psixoloji təsirləri nəzərə alınmalıdır.

* Uşaqlar və həssas qruplar üçün məzmun filtrasiyası tətbiq edilməlidir.

Unutmayaq ki, media cəmiyyətin güzgüsüdür. Bu güzgü, qorxunu və şiddəti deyil, humanizmi və dəyərləri əks etdirməlidir".

***Söylü Ağazadə***



# Avropanın təhlükəsizlik problemi

ABŞ nə Ukraynanın, nə də Avropanın təhlükəsizliyini təmin etməkdə maraqlı deyil. Aİ ölkələri öz qitələrinin taleyini özləri müəyyən etmək istəsələr, silahlı qüvvələrinə və müdafiə sənayesinə böyük sərmayələr qoymalı olacaqlar. Ukraynasız Ukrayna haqqında heç nə yoxdur. Hərbi əməliyyatların əvvəlindən Amerika bunu mantra kimi təkrarlayaraq Rusiyanın üçüncü ölkələri iki super güc arasında bölmək oyununda iştirak etməyəcəyinə söz verib. Donald Trampın "çox məhsuldar" adlandırdığı telefon danışığında o və Vladimir Putin müvafiq komandaların dərhal danışıqlara başlayacağı barədə razılığa gəliblər.

ABŞ-ın müdafiə naziri Pit Heqset NATO-dakı həmkarları ilə görüşü zamanı prezident Trampın dünyaya baxışını açıq şəkildə təsvir edib. Ərazilər Ukraynaya qaytarılmayacaq, deyə o, hazırkı təmas xəttinin dondurulacağına eyham vurub. Ukrayna öz nizamnaməsinin 5-ci maddəsinə əsasən nə NATO-ya üzvlük, nə də təhlükəsizlik zəmanəti almayacaq. Amerika əsgərləri heç bir halda orada iştirak edən sülhməramlı qüvvələr arasında olmayacaqlar. Bu qaranlıq sövdələşmə Rusiyanı torpaqla mükafatlandıracaq və Ukraynanı yaxın illərdə potensial hücumlara qarşı həssas edəcək.

Lakin eyni zamanda, Heqset etiraf etdi ki, söhbət Minsk razılaşmalarının Rusiyanın yeni bir hücumdan əvvəl yenidən qruplaşmaq üçün istifadə edə biləcəyi başqa bir variantından getmir. Əgər vəd yerinə yetirilərsə, Kiyev, Xarkov, Odessa, Xerson və Dneprdə qalarsa və hər şeydən əvvəl azad qalsa və çiçəklənərsə, onda Ukrayna xalqının qalib gəldiyini deyə bilərik. Bəli, dəhşətli qiymətə və orta sülh şərtləri ilə, lakin buna baxmayaraq, onun gələcəyi olacaq.

Münaqişənin əvvəlindən Ukraynaya dəstək verən İngiltərə və digər müttəfiqlər də bu qələbədən pay iddia edə biləcəklər. Ancaq Donald Trampın açıq şəkildə ifadə etdiyi və Pit Heqsetin ifadə etdiyi kimi, Amerika nə Ukraynanın, nə də Avropanın təhlükəsizliyini təmin etməkdə maraqlı deyil. Beləliklə, gələcək dünyanın forması Avropadan, o cümlədən İngiltərədən asılı olacaq. Ser Keir Starmer və onun Kanaldakı həmkarları qitənin taleyini özləri təyin etmək istədikləri barədə qərar verməlidirlər, yoxsa Moskva və Vaşinqtona bunu onlar üçün etməyə icazə verməlidirlər. Bu, Rusiyanın təkcə Ukraynaya deyil, həm də NATO-nun Avropa hissəsinə potensial hücumunun qarşısını almaq üçün onların hərbi və müdafiə sənayesinə böyük investisiyalar yatırılması deməkdir. Eləcə də sərt kompromislər və siyasi cəhətdən çətin xərcləmə qərarları. Amma hər şey mümkündür.

Ukrayna Avropanın ən böyük, döyüşə hazır ordusuna malik ölkəsidir. Əgər Britaniya və onun digər müttəfiqləri sözünün üstündə dursalar, onlar Qara dənizdən Barents dənizinə, Xarkovdan Kerri qraflığına qədər qitənin etibarlı müdafiəsini təşkil edə biləcəklər. Alternativ yəqin ki, belədir: Putin bir neçə ildən sonra Xarkov və Kiyevi




geri almaq üçün Ukraynaya qayıdacaq. Sonra o, alyansın kollektiv müdafiə ritorikasını həyata keçirməyəcəyinə əmin olaraq NATO ölkələrindən birini işğal edəcək. Bu tamamilə mümkündür.

Belə olan halda Britaniya və Avropa rus diplomatların "yeni Avropa təhlükəsizlik arxitekturası" adlandırdıqları şəraitdə yaşamalı olacaqlar. Burada güclü dövlətlərin zəif ölkələrini öz aralarında bölməsi fikri üstünlük təşkil edəcək. Təəccüblü heç nə yoxdur, əslində. Trampın ritorikası ardıcıldır. Amerikanın diqqətinin Sakit okean regionuna dəyişməsi Barak Obamanın dövründə və Amerikanın Avropa parazitizminə qarşı dözümsüzlüyü daha əvvəl başlayıb. İndi onların qıcıqlanmasını Vaşinqtonla Moskva arasında münasibətlərin əriməsi daha da artırır. Tramp deyib ki, o və Putin bir-birlərinin ölkələrinə səfər etmək barədə razılığa gəliblər. Qərb dövlətlərinin Rusiya prezidentini təcrid etmək üçün Moskva ətrafında qurduğu sanitar kordon yoxa çıxır.

Xarici Avropa Birliyi indiyədək NATO-nun ən güclü tərəflərindən biri olub. Höqsetin Ukraynanın Müdafiəsi üzrə Əlaqə Qrupunda çıxışına bir saatdan az qalmış - Kiyevə yardım 50-dən çox NATO ölkəsi tərəfindən koordinasiya edilir - NATO-nun baş katibi Mark Rutte açıq şəkildə Putinlə hər hansı danışıqlara qarşı xəbərdarlıq edib. "İrəliləmənin ən yaxşı yolu haqqında asanlıqla beyin fırtınası apara bilərik ... amma bunun olduğundan daha ağıllı olduğunu düşünməyək" deyib. Bununla belə, NATO-da bəziləri hələ də Heqsetin Ukrayna ilə bağlı etiraflarını alqışlayırlar. Məsələn, alman diplomatları uzun müddətdir ki, Ukraynanın öz torpaqlarını geri ala biləcəyinə, hətta NATO-ya daxil olmağın məqsədəuyğunluğuna şübhə ilə yanaşır.

Öz növbəsində, Vladimir Zelenski bir gün əvvəl o qeyd edib ki, Ukraynanın Amerika ilə Rusiya arasında müzakirələrdən kənarda qalacağından ehtiyatlanır. Döyüş hələ bitməyib. Zelenski istedadlı və yüksək motivasiyalı dövlət xadimidir. Ukrayna üçün sərfəli müqavilə bağlamaq üçün istənilən fürsətdən istifadə edəcək. Hələ qarşıda çox uzun yol var və silahlı münaqişənin sərt, qaçılmaz qaydaları nizamlanma yaxınlaşdıqca cəbhədə gərginliyin daha da artacağını bildirir. Bu arada Britaniya və Avropa özlərinə sual verməlidirlər ki, onlar masa arxasında oturmaq, yoxsa menyuda bir element olmaq istəyirlər? Qərar vermək vaxtıdır.

### Kölgədə qalan təhlükəsizlik

Fevralın 14-ü açılan Münhen Təhlükəsizlik Konfransının gündəliyi Ukrayna ilə bağlı ikitərəfli görüşə hazırlaşmağa başlayan ABŞ və Rusiya prezidentlərinin söhbətinin kölgəsində qalıb. İşçi atmosferin yaradılmasına konfransın hazırkı sədri Kristof Heusgenin Almaniyadakı seçkilərə bir həftədən az qalmış iki alman partiyasının nümayəndələrini dəvət etməkdən imtina etməsi ilə bağlı qalmaqal kömək etməyib. Konfrans sədrinin özü isə, məlum olduğu kimi, tezliklə öz yerini NATO-nun keçmiş baş katibi Yens Stoltenberqə verərək istefa verəcək.

Ənənəvi olaraq Bayerischer Hof otelində keçiriləcək ən böyük beynəlxalq təhlükəsizlik forumunun üç günlük gündəliyinə qlobal dünya düzəninin vəziyyəti, transatlantik münasibətlərin gələcəyi və Avropanın dünyadakı rolunun icmalı daxildir. Forumun ekspertləri artıq bu suallara öz cavablarını daha əvvəl hazırlanmış "Çoxqütblüləşmə" hesabatında təqdim ediblər. Onlar orada ABŞ-ın qlobal lider rolundan tədricən uzaqlaşacağını və belə bir addımın nəticələrinin bir çox regionlarda hiss olunacağını irəli sürüblər.

Bununla belə, qarşıdan gələn forumda Vaşinqton əvvəlki statusunu hələ də təsdiqləyəcək: bu il onun mövcud olduğu 60 ildən bir qədər çox müddətdə Münhen Konfransında iştirak etmiş ABŞ nümayəndə heyətlərindən birinə ev sahibliyi edəcəyi gözlənilir. Nümayəndə heyətinə vitse-prezident J.D.Vans, dövlət katibi Marko Rubio, Rusiya və Ukrayna üzrə xüsusi nümayəndə Keyt Kelloq və bir sıra senatorlar daxildir. ABŞ-ın yeni müdafiə naziri Pit Heqsetin iştirakı hələlik təsdiqlənməyib. Bu kontekstdə əsas intriqa ABŞ-ın öz müttəfiqlərinə Ukrayna nizamlanması planının təfərrüatlarını açıqlayıb-açmayacağı sualı olacaq. Konfransın sədri Kristof Heusgen cavab verməkdən yayınmaq yolunu seçib. "Mən əminəm ki, konfrans belə bir planın konturlarını və razılaşmada olması lazım olan parametrləri görmək üçün istifadə olunacaq. Arzu edənlər forumun kənarında konfransda iştirak edəcək Ukrayna prezidenti Vladimir Zelenski ilə nizamlanmanın müəyyən



aspektlərini müzakirə edə biləcəklər.

60-dan çox ölkədən liderlərin və aparıcı diplomatlarından ibarət bir neçə yüz iştirakçının Bavariyanın paytaxtında toplanması gözlənilir. Görkəmli fiqurlar arasında Avropa Komissiyasının sədri Ursula fon der Leyen və NATO-nun yeni baş katibi Mark Rutte yer alacaq. Münhendə G7 xarici işlər nazirlərinin görüşü planlaşdırılır. Həmçinin bu il konfransda Almaniyada ifrat sağçı və ya ifrat solçu siyasi qüvvələrin nümayəndələri iştirak etməyəcək. Sağçı populist Almaniya üçün Alternativin (AfD) iştirakı hələ 2023-cü ildə bloklanıbsa, o zaman bu yaxınlarda yaradılmış Sahra Vaqenknext İttifaqının (SWU) forumda özünü elan etmək imkanı belə yox idi. Cənab Heusgenin siyasəti, adətən, diqqətdən kənarda qalıb, lakin fevralın 23-də Bundestaqa növbədənkənar seçkilər fonunda bu vəziyyət dünya mediasının səhifələrində yer alıb.

NATO-nun keçmiş baş katibi Yens Stoltenberqin Münhen Təhlükəsizlik Konfransına sədrlik edəcəyi ilə bağlı şayiələr hələ sentyabr ayında yayılmağa başlayıb. Daha sonra cənab Stoltenberq özü də bu məlumatı təsdiqlədi və Almaniyanın "Spiegel" nəşrinə müsahibəsində sədrliyini necə gördüyündən danışıb. "Konfrans çox vacibdir, çünki bu, çox fərqli ölkələr üçün bir platformadır, hətta onlar bir-birini rəqib və ya hətta düşmən kimi görsələr də... Məhz buna görə də konfrans bir çox səslər üçün bir forum olaraq qalacaq və Qlobal Cənub adlanan ölkələr üçün açıq qalacaq", - o, foruma dəvət göndərmək siyasəti ilə bağlı fikirlərini o zaman izah edib.

**V.VƏLİYEV**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

**III YAZI**

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

## İlahi matriks sistemində yaşanan simulyasiya?

Maddi dünyanın matriks olduğu, bizim simulyasiyada yaşadığımız ehtimalı, Şərif demişkən, "sübutalnı, dokumentalnı" təsdiqlənmək üzrədir. Beləliklə, yaşadığımız dünyanın gerçək dünya olmadığı ortaya çıxır. Geçəkliyin mahiyyəti hələ də elmi olaraq aydınlaşdırılmayıb. Həqiqi dünyanın "maddi" kainatdan kənarda olduğu haqda müqəddəs kitablarda-Quranda, Baqavat-Gitada, İncildə, Avestada, Tövratda, həmçinin qədim dini-fəlsəfi mətnlərdə-Vedalarda, Şumer tabletlərində, Tibet ölülər kitabında, qədim Misir yazılarında, Mayya, İnk, Astek mədəniyyətlərində... həmçinin, bütün ezoterik elmlərdə ümumi biliklər verilib. Yaradılış haqda ən dərin biliklər hind Vedalarında yer alıb və orada qeyd olunanlar müasir elm tərəfindən ardıcıl surətdə kəşf edilməkdə və təsdiq edilməkdə davam edir. Bilinn kainatın yalnız 5 faizinin maddi, 95 faizinin bilinməyən "materiyadan", qaranlıq enerjidən ibarət olduğu ortaya çıxıb. Həmin 95 faizlik hissə maddi qanunlara tabe deyil, əslində maddi olaraq mövcud deyil.



Həyatın tərifi isə real gerçəkliyin duyğu üzvləri ilə qəbul və dərk olunmasından ibarətdir. Bunlar isə fiziki olaraq maddi deyil, sadəcə elektrik impulslarından ibarət siqnallarla mümkün olur. Düşüncənin varlığın əsas mahiyyəti olduğu, düşüncə sürətinin 2,6 milyon km/saniyə olduğu ehtimal olunur. Halbuki, maddi dünyada ən böyük sürət olan işıq sürəti 300 min km/saniyədir ki, bu artıq zamanın dayanması deməkdir. Hətta bu sürətdə keçmişin və gələcəyin görünməsi də mümkündür. Bu səbəbdən ehtimal olunur ki, keçmiş gələcək və indiki zaman eyni anda mövcuddur. Yəni, hər şey əslində yaşanıb bitmişdir.

Qısası, həm elmi, həm dini-fəlsəfi olaraq belə çıxır ki, bu dünya, bu həyat həqiqi dünyanın buradakı kobud proyeksiyasıdır. "Yuxarıda necədirsə, aşağıda da eləcə". Məhdudlandırılmış fiziki bədəndə yaradılışı tam dərk etmək nəzəri cəhətdən də mümkün deyil. Mütləq həqiqəti yalnız maddi dünyadan xilas olduqda dərk edə biləcəyik.

İnsanlar qədim mifologiyada, müqəddəs kitablarda nağılvari izah olunduğu kimi, əbədi və ruhi kainatdan "maddi" kainata, yəni ilahi matriksə yönəldilir və burada məqsəd ruhun kamilləşməsi, ilahi səviyyəyə yetişməsidir. Nəimi, Nəsimi kimi dərvişlər, hind baktiyoqa mərtəbəsinə yüksəlmiş yoqlar, sanyasilər, gizli elmlərə vaqif olan müdriklər, bunu dərketmənin gücü ilə anlamışdılar.

İlahi dialektika elə qurulub ki, hər şey həm ikiliklərin vəhdəti, həm də ikiliklərin mübarizəsi üzərində inkişaf edir. Fəlsəfədə forma və məzmun həm bir-birini tamamlamalı olan, həm də bəzən ziddiyyətə səbəb olan sistem kimi qəbul olunur. Bəzi hallarda birinin daha üstün qəbul edilməsi nəticəsində proseslərə təsir edir.

Həyatın yaranmasının ağlagəlməz dərəcədə qəliz və mürəkkəb proseslərin nəticəsi olduğu heç kimə sirr deyil. İngilis riyaziyyatçısı və astronom Ser Fred Hoyl özünün materialist olmasına baxmayaraq, 1981-ci ildə "Nature" jurnalına verdiyi bir müsahibəsində bir canlı hüceyrənin təsadüflər nəticəsində meydana gəlməsiylə bir dəmir yığınının qasırğa ilə sovrulması nəticəsində təsadüfən bir təyyarənin əmələ gəlməsi arasında bir fərq olmadığını bildirir. Yəni, hüceyrənin öz-özünə təsadüflər nəticəsində əmələ gəlməsi nəzəri cəhətdən belə qeyri-mümkündür. Hətta, bunu təsəvvür edə bilmək üçün belə bir müqayisə də verilir- həyatın təsadüfən əmələ gəlmə ehtimalı 6 trilyon dəfə zər atılması və hamısında eyni rəqəmlərin düşməsi ilə eyni ehtimalı ilə eynidir. Başqa bir ehtimala görə, həyatın təsadüfən yaranması ehtimalı 10 üstü 123-də 1 ehtimaldır. Riyaziyyat elmində 10 üstü 50-dən sonrakı ehtimallar nəzəri cəhətdən belə mümkün olmayan hal kimi qəbul edilir.Buna oxşar fikirləri saysız hesabsız alimlər dəfələrlə səsləndiriblər.

Yəni, Yaradanın varlığını inkar etməyə elm icazə vermir. Canlı hüceyrənin cansız maddələrdən öz-özünə yaranması və özünü şüurlu surətdə idarə etməsi elmə o dərəcədə ziddir ki, bunu idda edənlərin psixi cəhətdən müalicə edilməsinə ehtiyac var. Amerikalı fizik, informasiya nəzəriyyəçisi professor Hyubert P. Yokin dediyi kimi, "Yer üzündə həyatın cansız maddədən öz-özünə yaranması inancı, sadəcə olaraq, ciddi reduksionizmə inam məsələsidir və bütünlüklə ideologiyaya söykənir".

Təkcə mənim əldə etdiyim, Yaradanın varlığını təkzibedilməz şəkildə sübut edən elmi faktların sayı minlərlə ölçülür. Şübhəsiz ki, alimlərə milyonlarla belə fakt məlumdur. Yaradılışın mükəmməl və ali şüur tərəfindən məqsədli yaradıldığını təkzib edəcək bircə dənə belə fakt yoxdur və ola da bilməz. Harvard Universitetindən amerikalı bioloq, paleontoloq, Stiven C.Quldla birlikdə sıçrayışlı təkamül nəzəriyyəsini irəli sürmüş Nils Eldricin dediyi kimi, "əslində, bioloji dünyada hamımızın gördüyü nizam üçün tək rəqib açıqlama Xüsusi Yaradılış anlayışına aiddir".

Darvinizmin elmdən daha çox ideologoya olduğunu başqa alimlər də qeyd ediblər. Alman təkamülçü yazıçı və publisisti Vilhelm Bölşe E.Hekkel üçün yazdığı bioqrafiyada deyir: "Darvinin nəhs kitabı ("Növlərin mənşəyi") Bronnun tərcüməsində 2 il göz qabağında idi. Professional alman zooloqlar, botaniklər və geoloqlar onu, demək olar, büsbütün cəfəngiyat saydılar. Aqassis, Geybel, Keferşteyn və hələ bir çoxları üzləri qıpqırmızı olana qədər gülmüşdülər".

Maddi bədən məhdudlaşdırılmış vəziyyətdədir və onun hadisələri real təcrübədə görmə imkanları son dərəcə aşağıdır. Dünyada çox şeylər var ki, biz onları görmürük, eşitmirik, hiss etmirik. İnsanın gözünün görmə spektri və dərəcəsi var. Bundan kənar olanları biz görmürük. Məsələn, dünyadakı mikrocanlıların 90 faizini biz görə bilmirik. Maddi şeylərdən başqa var olan, amma görməyin heç cür mümkün olmadığı şeylər də var- bu mənəvi hisslərdir. Görə bimədiklərimizi görmək üçün 3-cü gözümüzü açmamız lazımdır.

Eynilə, səslərlə bağlı da belədir. İnsan qulağının eşitmə diapozonu (20-20000 meqahers) var və bundan aşağı və yuxarı səsləri biz qəbul edə bilmirik. Belə bir vəziyyətdə "biz görmədiyimiz və eşitmədiyimiz şeylər yoxdur" demək olmaz. Elm və texnologiya sübut etdi ki, onlar mövcuddur.

İnsan orqanizmi ilə bağlı elmin son kəşflərinə nəzərdə salanda adamı dəhşət bürüyür, yaradılışın qüdrəti qarşısında dili tutulur. 100 milyard neyron mükəmməl bir komanda şəklində işləyərək saniyədə trilyonlarla əməliyyat aparır və beynimiz superkompüterdən minlərlə dəfə güclü və tutumlu hala gəlir. Orqanizmdə hüceyrələr saniyədə 25 milyon dəfə yenilənir. Trilyonlarla canlı bizim orqanizmimizdə vahid komanda şəklində işləyərək yaşamamızı təmin edirlər. Və bu canlılar hamısı şüurludur.



Kimya elmi maddi həyatın material bazasıdır. Burada da inanımaz möcüzələr var. Yandırıcı və zəhərli qaz olan elementlər- hidrogen, azot, oksigen və karbon birləşəndə hər yeri yandırıb dağıtmaq əvəzinə həyatın mənbəyini- qanın 98 faizini təşkil edir. Sonsuz birləşmə qura bilən həyati element karbon birləşmələrinin bəziləri yalnız bir neçə atomdan meydana gəldiyi halda, bəzilərində minlərlə, hətta milyonlarla atom var. Atomlarının konfiqurasiyası bir cür düzüləndə kömür əmələ gəlir, başqa cür düzüləndə almaz. Suyun tərkibi 2 hidrogen və 1 oksigen atomundan ibarətdir. 2 təhlükəli qazdan həyat üçün ən zəruri maye yaranır. Lakin alimlər bu atomlardan heç cür su yarada bilmirlər. Və suyun yaddaşı, şüuru, hadisələrə reaksiyası var...Elmdə daha bir şok isə, beynimizin hadisələrə reaksiyasının maddi bədənə heç bir aidiyyatının olmadığının üzə çıxması ilə bağlı oldu. 2016-cı ildə "Scientific Reports" jurnalında qəribə bir eksperimentin nəticəsi dərc olundu. Avstraliyanın Yeni Cənubi Uels Universitetinin tətqiqatçıları silsilə eksperimentlər zamanı intuisiya ya 6-cı hissin mövcudluğunu sübut etdi. Tədqiqatda 2 könüllü qrup kompüter ekranındakı birində qırmızı üfüqi, digərində isə yaşıl şaquli xətlər olan iki şəkildən birini seçmək, seçdikdən sonra düyməni basmaq təklif olunub. Məlum olub ki, beyin düyməni basmazdan 0,25 saniyə əvvəl şüurlu şəkildə qərar verir. O da aydın olub ki, yaxşı emosiyaya sahib olanlar öz intuisiyası əsasında daha düzgün qərar verməyi bacarıb. Tədqiqatçılar iddia edirlər ki, günümüzdə mükəmməl kompüter proqramı insanın seçimini əvvəlcədən proqnozlaşdıra bilər.

Bu artıq fiziki enerji deyil, ruhi enerjinin əməlidir. İnsan fizioloji olaraq nəyisə gördükdən və qərarı verdikdən əvvəl onun bunu edəcəyi artıq dəqiqdir.

Bu fenomeni ilk dəfə 80-ci illərin sonlarında Amerika alimi Benjamin Libet kəşf edib. O, sınaqdan keçirilən subyektdən sadəcə yumruğunu sıxmağı xahiş edib. Bu, adi bir təcrübədir. Amma ensefaloqramma alimi heyrətləndirib. Çünki beyində siqnal hərəkətin yerinə yetirilməsinə təxminən yarım saniyə qalmış yaranıb. Subyektlər özləri də qərarlarını aksiyadan dörddə bir saniyə əvvəl anladıqlarını bildiriblər. Yəni beyin insan bu haqda düşünməmişdən əvvəl qərar verib.

Bu istiqamətdə ən "səs-küylü" təcrübəni MRT skanerində araşdırma aparan Con-Dilan Haynes aparıb. Bu təcrübədə subyektin beyni siqnalı dərk etməzdən 7 saniyə əvvəl qərar verdi və alimlər sınaqdan keçirilənin hansı seçimi edəcəyini proqnozlaşdıra bildilər. Hayns bəyan etdi: "Qərarlarımız şüurumuz onları dərk etməzdən xeyli əvvəl qeyri-şüur tərəfindən müəyyən edilir. Beyin hər şeyə insanın özündən əvvəl qərar verir".

Beləliklə, ortaya sual çıxır- əslində bizi nə idarə edir? Maddi bədənimiz, beynimiz, yoxsa şüurumuz, ruhumuz? Aydın olur ki, bizim nə edəcəyimiz, necə edəcəyimiz əvvəldən məlumdur. Lakin bu demək deyil ki, biz robotuq, verilmiş proqramı yerinə yetiririk və tale, qismət deyilən şeylər nəticəsində olur, bizim rolumuz yoxdur. Əksinə, bu onu göstərir ki, biz bu həyatı yaşamışıq, hər şey baş verib bitib, indi sadəcə onun proyeksiyasını izləyirik. Sanki yaşadığımız həyat, verdiyimiz qərarlar, etdiyimiz seçimlər bizə film kimi simulyatorda yaşadılır. Tam da kliniki ölüm zamanı insanların bütün həyatlarını bir neçə saniyədə izlədikləri kimi

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

SƏS
15 fevral
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Kimlərə oruc tutmaq olar?

*“Orucun insana faydalarından danışan zaman mütləq bilmək lazımdır ki, bu sağlam insan üçün nəzərdə tutulub. Əgər biz deyiriksə, “oruc insana faydalıdır”, yəni bu söz sağlam insana aiddir. Qurani-Kərimin oruc barəsində olan ayəsində də qeyd olunub ki, xəstə olan insanlara oruc tutmaq olmaz. Orucun insan bədəninə faydası sağlam insana aiddir.*





MÜNASİBƏT

Əlbəttə müəyyən xəstəliklərin müalicəsində orucun faydası ola bilər. Bu yalnız İslam maarifində yox, əsrlərlə tibbə aid olan kitablarda da öz əksini tapmışdır. Hal-hazırda müasir həkimlərin reportajlarında, müsahibələrində onlar bəzi xəstəliklərin yollarından birinin pəhriz olduğunu bildirirlər. Hətta bunu açıqca orucla əlaqələndirirlər. Yeni orucun insana faydalarından danışan zaman, onun bir insanın səhhətinə zərərli olması halı nəzərdə tutulmur. Həkim tərəfindən bəzi xəstəliklərə orucun pis təsiri olarsa, bu qadağa edilə bilər, amma sağlam insanın oruc tutmasının insana çox faydası var”. Bu sözləri ilahiyyatçı Fazil Əhməd SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, ilk növbədə başa düşmək lazımdır ki, bizə həyatı, bədən üzvlərini bəxş edən Allah heç vaxt zərərli olan bir şeyi əmr etməz: “Biz orucun insana faydalarından danışarkən, orucun şərtlərinə düzgün əməl etməkdən də danışmalıyıq. Bəzi oruc tutan insanlar sübh çağında, imsak dediyimiz vaxtda yemək yeyəndə həddindən çox qida qəbul edir. Nə həkimlər, nə İslam dini, nə də Allah bu cür pəhriz saxlamaqla razı deyil. Həmçinin axşam iftar vaxtı həddindən çox və qarışıq qida qəbul eləmək doğru deyil. Biz əgər deyiriksə, oruc tutmaq insan sağlamlığına xeyirdir, o zaman Allahın razı olduğu orucu nəzərdə tuturuq. Peyğəmbərimizin belə bir hədisi var ki, Allahın bir neçə dolu qabdan acığı gəlir. O qablardan biri isə halaldan dolan mədədir. Yəni insan mədə dolana kimi yemək yeməməlidir”.

Həmçinin ilahiyyatçı bildirib ki, istər oruc tutmaq, istərsə də pəhriz saxlamaq insan bədənində müəyyən xəstəliklərə səbəb olan qida qalıqlarının atılması üçün çox mühümdür: “İnsanın sağlamlığının böyük faizi bağırsaqda olan qidalardan asılıdır. Yəni qidalar bağırsaqlar tərəfindən sovrulur və o zaman çatışmayan vitaminlər insanda xəstəliklərə səbəb olur. Bu səbəbdən oruc tutan zaman az qida qəbul olunması insanlara israr edilir. Oruc tutan insanın o vaxt faydası ola bilər ki, o süfrədən doymamış vəziyyətdə dursun. Tibb alimləri insanın tam doymasının süfrəyə oturandan 15-20 dəqiqə sonra bilindiyini deyirlər. Bu fakt həm oruc luq ayına, həm də digər aylara aiddir”.

***Xeyrənsə Piriyeva***

# Milli Məclisdən QƏRAR - 21 yaşına çatmış şəxslər silah əldə edə biləcəklər

*Azərbaycanda 21 yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ olacaq. SİA xəbər verir ki, bununla bağlı Cinayət Məcəlləsinə və “Xidməti və mülki silah haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisin dünənki plenar iclasında müzakirə edilib. Bildirilib ki, mövcud qanunvericiliyə əsasən, mülki odlu silah əldə etmək hüququ üçün qoyulan yaş həddi 18-dir.*

Qeyd edək ki, ölkədə xidməti və mülki silahı əldə etmək hüququ olan subyektlərin sırasına xüsusi nizamnamə vəzifələrini yerinə yetirən dövlət orqanlarının və hüquqi şəxslərin, xidməti və mülki silahın işlənib hazırlanması, sınaqdan keçirilməsi, istehsalı ilə və ya silahın satışı ilə məşğul olan müəssisələr, idman və ovçuluq cəmiyyətləri və təhsil müəssisələri aiddir. Layihə müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.



# Mbappe Fransa millisinə qayıdır



*Fransa millisinin baş məşqçisi Didye Deşam "Real"ın hücumçusu Kilian Mbappe haqqında danışıb. SİA xəbər verir ki, o, fransalı ulduzun mart ayında keçiriləcək oyunlara çağırılacağını bildirib: "Kilian martda komandada olacaq? Aydındır ki, o, millidə olacaq. Niyə olmasın?"*

Qeyd edək ki, martda Fransa Millətlər Liqasının 1/4 final mərhələsi çərçivəsində Xorvatiya millisi ilə iki oyun keçirəcək.

ELAN

**“GƏNCƏ-TİCARƏT-044” ASC səhmdarlarının nəzərinə!**

“GƏNCƏ-TİCARƏT-044” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı “17” mart 2025-ci il saat 14:00-da, cəmiyyətin Gəncə şəhəri, Nizami Gəncəvi prospekti, giriş 108A ünvanındakı inzibati binasında aşağıdakı gündəlikdə keçiriləcəkdir:

1. “GƏNCƏ-TİCARƏT-044” Açıq Səhmdar Cəmiyyətinin Gəncə şəhəri, Nizami Gəncəvi prospekti, giriş 108A ünvanında yerləşən daşınmaz əmlakının özgəninkiləşdirilməsi;
2. **Digər məsələlər.**

Səhmdarlar növbədənkənar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 1000-dən 1800-dək, Səhmdar Cəmiyyətin Gəncə şəhəri, Nizami Gəncəvi prospekti, giriş 108A ünvanında yerləşən inzibati binasında səhmdar cəmiyyətin Direktoruna müraciət etməklə tanış ola bilərlər .

Yığıncaqda iştirak etmək vacibdir.

**Ünvan: Gəncə şəhəri, Nizami Gəncəvi prospekti, giriş 108A.**

**“GƏNCƏ-TİCARƏT-044” ASC-nin Direktoru Rəhimov Camal Azər oğlu**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**